# İNSANLAR ARASINDA KÖRPÜ QURAN BAYRAM



"Adətən, bayram günü süfrələr açılır, xəstələrə baş çəkilir, qəbirüstü ziyarətlərə gedilir. İnsanlar bir-birini görürlər, təmasda olurlar və küsülülər barışır".

İslam dininin beş şərti var, onlardan biri də oruc tutmaqdır. Buna riayət edən, sağlamlığı imkan verən müsəlmanlar hər il 11 ayın sultanı olan Ramazanda bir ay oruc tuturlar. Bir ayın sonunda isə oruc dayandırılır və Ramazan bayramı qeyd edilir. Bu gün məhz o gün - Ramazan bayramıdır. Bəs bu bir ayda nə qazandıq? Bayramı necə qeyd etməliyik?

QMİ-nin sədr müavini, ilahiyyatçı-alim Fuad Nurullayev deyir ki, bir ay oruc tutmaq insana böyük dəyərlər bəxş edir: "Oruc sözü ərəbcədən tərcümədə mənən, ruhən ən yüksək məqama qalxmaq deməkdir. Oruc tutan Ramazanda təkcə mədəsini ac saxlamır, eyni zamanda gözünə, dilinə, əlinə, ayağına - bütün bədən üzvlərinə diqqət edir".

SƏHİFƏ 6-da

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

10 APREL ÇƏRŞƏNBƏ 2024 № 13 (4164) Qiyməti - 40 qəpik www.kaspi.az





## APTEKLƏRİN YARISI ƏCZAÇISIZ QALIB

Azərbaycanda mövcud olan 3 250 aptekin təxminən 1 625-nə əczaçı tələb olunur. Gənclərin bu peşəyə marağı çox aşağı səviyyədədir. Üstəlik, ali məktəblərdə əczaçılıq ixtisası üzrə plan yerlərinin sayı həddindən artıq azdır.

SƏHİFƏ 12-də



## TOY BİZNESİ XİLAS OLA BİLƏCƏKMİ?

Toy mövsümünə start verilir. Lakin toy biznesi sahəsində mövcud vəziyyət heç də ürəkaçan deyil. Son zamanlar şadlıq saraylarının sürətlə profillərini dəyişdiyini də müşahidə edirik.

SƏHİFƏ 7-də



## SİVİLİZASİYANIN TOXUNMADIĞI YERDƏN REPORTAJ

Turistlərin diqqətini cəlb edən İordaniyanın cənubundakı Vadi Rum səhrası Yer kürəsini tərk etmədən özünüzü başqa planetdə tapmaq üçün bir fürsətdir. Bura çöl safarisi üçün ən sevimli turist marşrutu hesab olunur.

SƏHİFƏ 15-də

### CƏNUBİ QAFQAZA VƏD EDİLƏN "FİRAVAN GƏLƏCƏK"

# "BÖYÜK BACI"NIN XAM XƏYALLARI

Paris anlamalıdır ki, destruktiv fəaliyyətə nə qədər ki, son qoyulmayıb, bu, həm Fransanın zərər görmüş imicinə, həm də Ermənistana xeyir gətirməyəcək.




**FRANSANIN HESABA ALMADIĞI REALLIQ**

Makronun hesaba almadığı bir fakt var. Cənubi Qafqaz dedikdə ilk yada düşən, qapısı döyülən müstəqil Azərbaycan dövləti. Bu, işğal dövründə də belə idi, indi də. Hazırda isə vəziyyət tamamilə fərqlidir. Haqq müharibəsindən tarixi zəfərlə çıxan güclü Azərbaycan və onun hərbi-siyasi təşəbbüsü ilə yaranan yeni reallıqlar var.

**RƏSMİ PARİSƏ TƏRS ŞİLLƏ EFFEKTİ**

Makronun reallıqdan uzaq ambisiyalarının yarada biləcəyi fəlakətləri artıq Avropa ölkələri də anlayır. Bu baxımdan İtaliya XİN təmsilçisi Edmondo Çiriellinin Stefan Sejurnenin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması ilə bağlı bəyanatlarına reaksiyası xüsusilə diqqət çəkir.

SƏHİFƏ 4-də

### "BÖHRAN İÇİNDƏ İTİB-BATIRLAR, AMMA..."

# AİLƏ ROMANTİK AĞILLA QURULMAMALIDIR

Təhlükədə olan Azərbaycan ailə modeli, ailələrdə uşaq sayının azalması, qohumluq əlaqələrinin soyuması, gənclərin ailə qurmaqdan çəkinməsi, insanların getdikcə təkliyi seçmələri cəmiyyətin narahat olduğu, mətbuatda daim müzakirə edilən məqamlardır. Biz də "mən hazırda bu məsələlərin yaratdığı fəsadlarla işləyirəm", - deyən mütəxəssislə söhbətləşdik. "Kaspi" qəzetinin müsahibi psixoloq Nizami Orucovdur.



SƏHİFƏ 8-9-da



## ƏRDOĞAN İLHAM ƏLİYEVƏ ZƏNG EDİB

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Türkiyə Prezidenti dövlətimizin başçısını Ramazan bayramı münasibətilə təbrik edib, xalqımıza firavanlıq arzularını çatdırıb. Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirərək, öz növbəsində Rəcəb Tayyib Ərdoğanı bayram münasibətilə təbrik edib, Türkiyə xalqına əmin-amanlıq arzulayıb. Dövlət başçıları telefon söhbəti zamanı Azərbaycan-Türkiyə dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin gələcəkdə də bütün sahələrdə inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminliklərini bildiriblər, əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.



## BRÜSSEL GÖRÜŞÜ VƏ İRANIN "LAL" GEOSİYASƏTİ

Tehranın susqun reaksiyası çox davam edə bilməz. Bu susqunluğun pozulması üçün yetərincə dəlillər var. NATO-nun İranla sərhəddə yerləşməsi klerikal rejimi nə vaxtsa hövsələdən çıxaracaq. Əsl teatr onda başlayacaq.

SƏHİFƏ 3-də



**Balıq bol olacaq, qiymət isə....**

SƏHİFƏ 14-də



**Evsizlərin əsas ümid yeri**

SƏHİFƏ 11-də



**"Xoşbəxtlik hormonu"muz bahalaşır**

SƏHİFƏ 10-da



**"Son qəpiyimi də sənə xərcləmişəm" tənəsi**

SƏHİFƏ 13-də



**Türkiyə nəhənglərinin davası alovlanır**

SƏHİFƏ 16-da



# Prezident Azərbaycan xalqını təbrik edib

Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib. Təbrikdə deyilir:

“Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi çatdırıram.

Ramazan ayı insanların qəlbini və təfəkkürünü nurlandıran, onları əmin-amanlığa, vəhdətə, əxlaqi saflığa dəvət edən mübarək aylardandır. Müqəddəs kitabımız “Qurani-Kərim”in nazil olduğu bu ayda müsəlmanlar Uca Yaradan qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək, mənəvi-əxlaqi zənginliyin fərəhini yaşamaq fürsəti qazanırlar.

Xalqımız taleyinin ən çətin dönəmlərində belə, öz tarixi köklərini, milli-mədəni dəyərlərini, adət-ənənələrini qoruyub saxlamışdır. İslam dünyasının ayrılmaz hissəsi olan Azərbaycanda dini bayram və mərasimlər hər il qeyd olunur və müsəlman aləmi ilə mənəvi həmrəyliyimizi təcəssüm etdirir. Builki Ramazan bayramı həm də otuz illik düşmən tapdağından azad edilmiş dədə-baba yurdlarımızda, Azərbaycanın bütün suveren ərazisində keçirilməsi ilə əlamətdardır.

Əziz bacı və qardaşlarım!

Orucluğun sınaqlarından alnıaçıq çıxan inanclı vətəndaşlarımız Ramazan ayını qürur və şükranlıq hissləri ilə yola salırlar. Ölkəmizin hər yerində xalqımıza xas xeyriyyəçilik və yardımlaşma tədbirləri həyata keçirilir, şəhidlərimizin ölməz xatirəsi minnətdarlıqla yad edilir. Ümidvaram ki, dua və niyyətləriniz Tanrı dərgahında qəbul olunacaq, bu mübarək bayram xeyirxahlığın, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevrilərək cəmiyyətimizdə birliyi və həmrəyliyi daha da gücləndirəcəkdir”.

# Gəncə şəhər stadionunun TƏMƏLİ QOYULUB



**Prezident İlham Əliyevin Hacıqabul və Qəbələ rayonlarına, Gəncə şəhərinə səfəri çərçivəsində səkkiz yaşayış məntəqəsini birləşdirən yol, Gəncə İdman Sarayı istifadəyə verilib. Dövlət başçısı Kür çayından nasos stansiyası vasitəsilə suvarma suyunun çatdırılması üzrə suvarma qurğuları kompleksi ilə tanış olub.**

Prezident İlham Əliyev Hacıqabul və Qəbələ rayonlarına, Gəncə şəhərinə səfər edib. Dövlət başçısı səfər çərçivəsində bir sıra açılışlara qatılıb.

### SƏKKİZ YAŞAYIŞ MƏNTƏQƏSİNİ BİRLƏŞDİRƏN YOL

Dövlət başçısı Hacıqabul rayonu Muğan-Birinci Paşalı-İkinci Paşalı-Şorbaçı-Birinci Udullu-Tağılı-İkinci Udullu-Qubalı avtomobil yolunun açılışında iştirak edib.

Bildirilib ki, vətəndaşların rahat gediş-gəlişini təmin etmək məqsədilə əsaslı şəkildə yenidən qurulan yol rayonun səkkiz yaşayış məntəqəsini birləşdirir. Uzunluğu 39 kilometr olan iki hərəkət zolaqlı avtomobil yolu 4-cü texniki dərəcəyə uyğun inşa edilib. Görülən işlər nəticəsində 12 mindən çox əhalinin rahat gediş-gəlişi təmin olunub, yük və sərnişin daşınması asanlaşıb.

### İNTENSİV SUVARMA SAHƏLƏRİNİN ƏRAZİSİ GENİŞLƏNDİRİLİR

Prezident İlham Əliyev Hacıqabul rayonunda “Agro Dairy” MMC-yə məxsus 4 200 hektar torpaq sahəsinə Kür çayından nasos stansiyası vasitəsilə suvarma suyunun çatdırılması üzrə suvarma qurğuları kompleksi ilə tanış olub.

Dövlət başçısına Hacıqabul suvarma layihəsi barədə də məlumat verilib. Qeyd edilib ki, layihə çərçivəsində 2022-ci ildə 2 555 hektar sahənin suvarılması təmin olunub. Layihənin gələn il 1 225 hektar sahədə də həyata keçirilməsi nəzərdə tutulur.

Həmçinin bildirilib ki, ötən ilin sonunda intensiv suvarma sahələrinin ərazisi 19 min 200 hektara, pivotların sayı 296-ya çatdırılıb, 4 toxum emalı kompleksi yaradılıb. Qarabağ regionu üzrə 2020-ci ildən təhkim olunmuş ərazilərdə 27 min 107 hektar, 2023-cü ilin sentyabrında keçirilmiş antiterror tədbirləri nəticəsində azad edilmiş Xocalı, Ağdərə və Xocavənd rayonlarında 11 min 276 hektar ərazidə yazlıq və payızlıq əkin işləri aparılıb.

### EKOLOJİ PARK KOMPLEKSİ İLƏ TANIŞLIQ

Prezident Gəncə şəhərində Ekoloji Park Kompleksinin tikintisi ilə tanış olub. Bildirilib ki, Qərb bölgəsində ilk dəfə Gəncə şəhərində salınan Ekoloji Park Kompleksinin tikintisinə və onun ətrafında abadlıq işlərinə 2021-ci ilin dekabrında başlanılıb. Gəncəçay çayının sağ sahilində yerləşən kompleks 11 hektar ərazini əhatə edir.

Unikallığı ilə seçiləcək kompleksdə insanların rahatlığı və asudə vaxtlarını daha səmərəli keçirmələri üçün bütün lazımi şərait yaradılır. Kompleksə sahəsi 1 285 kvadratmetr olan ikimərtəbəli oranjereya binası daxildir. Burada son tamamlama işləri həyata keçirilir.





## GƏNCƏ İDMAN SARAYI İSTİFADƏYƏ VERİLİB

Dövlət başçısı Gəncə İdman Sarayının açılışında da iştirak edib. Ümumi sahəsi 40 min kvadratmetrə yaxın olan İdman Sarayında bütün zəruri infrastruktur yaradılıb. Böyük zalda beynəlxalq standartlara uyğun olaraq basketbol, voleybol, həndbol, minifutbol və atletika oyunlarının keçirilməsi nəzərdə tutulub. Bu zalda 2200 nəfərlik sabit oturacaq yeri olan tribuna, 850 nəfərlik mobil oturacaq və fiziki məhdudiyyəti olan tamaşaçılar üçün 20 yer ayrılıb.

Gəncə İdman Sarayının əhəmiyyətini artıran cəhətlərdən biri də burada müasir mehmanxananın yaradılmasıdır. Səksən nömrəsi olan mehmanxanada 160 idmançının qalması və istirahəti üçün hər cür imkan var.

## UEFA STANDARTLARINA UYĞUN 15 MİN 464 YERLİK STADİON

Prezident İlham Əliyev Gəncə şəhər stadionunun təməlini də qoyub. Bildirilib ki, 1959-1963-cü illərdə inşa edilən Gəncə şəhər stadionu 1964-cü ildə istismara verilib. Son illərdə stadionun tamaşaçı tribunaları yararsız vəziyyətə düşdüyündən və texniki cəhətdən istismarı mümkün olmadığından fəaliyyəti qismən həyata keçirilirdi. Stadionun ərazisində köməkçi məşq meydançaları və futbol akademiyası binası tikilib.

Yenidənqurma işləri çərçivəsində stadionun ərazisi genişləndirilərək 10 hektara çatdırılacaq. UEFA-nın 4-cü kateqoriya standartlarına uyğun inşa ediləcək stadionun tamaşaçı tutumu layihə üzrə 15 min 464 yerlikdir. Stadionun istifadəyə verilməsi istər yerli, istərsə də beynəlxalq yarışların keçirilməsinə hərtərəfli şərait yaradacaq.

Prezident Qəbələ rayonuna səfəri çərçivəsində isə Qəbələ Rayon Mərkəzi Xəstəxanasının, Ağdaş-Zarağan yolunun 40-cı kilometrliyindən başlayan Böyük Pirəli-Kiçik Pirəli-Xırxatala-Cığatelli-Həmzəli avtomobil yolunun açılışında iştirak edib.

# BRÜSSEL GÖRÜŞÜ VƏ İRANIN "LAL" GEOSİYASƏTİ



Tehranın susqun reaksiyası çox davam edə bilməz. Bu susqunluğun pozulması üçün yetərincə dəlillər var. NATO-nun İranla sərhəddə yerləşməsi klerikal rejimi nə vaxtsa hövsələdən çıxaracaq. Əsl teatr onda başlayacaq.



RÜSTƏM QARAXANLI

Brüssel görüşü ətrafında cərəyan edən hadisələrdən bəlkə də ən diqqət çəkəni İran rəsmilərinin müəmmalı susqunluğudur. Üç ildən çoxdur bölgədə hansısa mücərrəd "qırmızı xətt"lər deyib-duran Tehran nədənsə Brüsseldə əsası qoyulmuş Qərb-Ermənistan işbirliyinə münasibət bildirmək istəmir. İndi İran başqaları ilə görüşməyə başlamış sevgilisini itirməkdən qorxan məşuqa bənzəyir: onlarla olsun, amma məni də tərk etməsin. "Zəhm"i qeyb olmuş İranın bu davranışının əsasında hansı amillər durur?

### FƏRQLİ "XARİCİ QÜVVƏLƏR"

İranın hazırki passivliyinin doğurduğu suallar əsassız deyil. Üç il öncəyə qayıdıb xatırlamalı olsaq, o vaxtkı mənzərə ilə indiki arasında yerlə-göy qədər fərq var. Azərbaycanın öz əzəli torpaqlarını geri qaytarmaq üçün hərəkətə keçməsi dünyada bəlkə də İrandan çox heç kimi qıcıqlandırmamışdı. Molla rejiminin parlamentdəki təmsilçilərindən tutmuş, saqqallı hərbçilərinədək hər kəs regiondakı "sərhədlərin dəyişilməsinin mümkünsüz" olmasından danışırdı.

Biz hərbi əməliyyatların keçirildiyi günlərdə İran ərazisindən Ermənistana daşınan silah-sursat karvanlarını, Qarabağda kök salmış separatçılar üçün yanacaq sisternlərini, yolda nömrə-nişanlarını Ermənistan nömrələri ilə dəyişən İran yük avtomobillərini unutmamışıq. Biz Azərbaycanın Qərb rayonlarından Naxçıvana çəkilməli olan və Zəngəzurdan keçəcək yolun "İranın milli təhlükəsizliyi"nə necə "təhlükə" olması barədə alovlu bəyanatları da xatırlayırıq.

Sərhədlərimiz boyunca iri hərbi manevrlər keçirən, ağır texnika ilə yanaşı, çaylardan aşmaq üçün mobil hərbi körpülərin - pantonların istifadə edilməsi, bunun videogörüntüsünün təmtəraqla yayılmasını yaddaşlarımıza həkk etmişik. Bununla kimə hansı mesajın göndərildiyini də anlayırıq. Həmin manevrlərdə ötən əsrin 70-ci illərinin istehsalı olan köhnə tankların lüləyindən tutmuş müasir ballistik raketlərədək bütün arsenalın şimala doğru tuşlandığı yadımızdadır. Hamısı nəyə görə idi? Bölgədə "xarici qüvvələr"in qarşısını almağa görə. İndi isə sual olunur: bəs NATO, Fransanın İrəvana gələn müdafiə naziri? Amerikalı hərbçilər? "Müşahidə missiyası" adı altında pərdələnmiş avropalı hərbi kəşfiyyatçılar? Onlar xarici qüvvələr deyil, bəs kimlərdir?

### MÜƏMMALI PASSİVLİK

44 günlük müharibədən sonra İranın Azərbaycana qarşı nümayiş etdirdiyi örtülü aqressiya səfirliyimizə edilən hücum və diplomatımızın qətl edilməsi ilə açıq xarakter aldı. Maraqlı vəziyyət yaranmışdı: İran ögey dindən olan Ermənistanda konsulluq açdığı bir dövrdə müsəlman, din qardaşı sayılan Azərbaycanın Tehrandakı səfirliyinə edilmiş vəhşi silahlı basqına biganə münasibət bəsləyir, diplomatımızı öldürmüş qatili gah psixi xəstə, gah "qısqanc ər" etməklə cinayətin üstünü ört-basdır etmək istəyirdi.

Bu siyasət bu gün də dəyişməz olaraq qalır. Ermənistana Fransa (NATO) istehsalı silah gətirilir, NATO üzvü olan dövlətlə hərbi əməkdaşlığa dair sazişlər imzalanır, rəsmi İrəvan bölgənin ənənəvi aktoru, hazırkı Ermənistanın tarixi yaradıcısı olan Rusiyanın bölgədən sıxışdırılması üçün dəridən-qabıqdan çıxır, amerikalı hərbi ekspertlər erməni həmkarlarına təlimlər keçir, Tehranda isə məzar susqunluğudur. Sanki həmin "xarici qüvvələr" bölgəyə yalnız Azərbaycan vasitəsilə gələ bilərlər, "qırmızı xətt"lər isə bizə münasibətdə "qızarır". İranın Dəməşqdəki hərbi qərar qəbuletmə dayağının vurulmasına cavab olaraq bu ölkənin parlamentində İsrailin Bakıdakı (?!) səfirliyinin bombalanması təklif olunur. Ermənistanın Hindistandan aldığı hərbi silah-sursat yenə də İran ərazisi ilə daşınır. Tehranın bu passiv siyasətinin kökündə hansı hesablar və gözləntilər durur?



## SUSMAQ "İRAN QIZILI"DIR

Susmaq da reaksiyadır, münasibətin bu tərzdə bildirilməsidir. Ələlxüsus da əgər müəmmalıdırsa. İranın bu susqunluğu nə ilə əlaqədar ola bilər?

Geosiyasi səbəb. Hazırda izlənən geosiyasi proseslərin hədəfi Rusiya, Türkiyə və Azərbaycana qarşı yönəlib. Qərb Ermənistan vasitəsilə bölgədə iki əsrlik Rusiya mövcudluğuna son qoyub onun yerinə keçmək istəyir. Bu siyasətin bir qolu da Türkiyə və Azərbaycanın sabitlik və iqtisadi təşəbbüslərinə qarşı yönəlib. Hər şey biz istədiyimiz kimi olarsa, Türkiyə və Azərbaycanın bölgədəki hərbi-siyasi üstünlüyünə iqtisadi dominantlıq da əlavə olunur. Çindən Qərbə doğru logistik xətlərin coğrafiyasına diqqət yetirsək, buna əmin ola bilərik.

Tehranın davranışından belə çıxır ki, bu reallıq Qərb kimi, İrana da sərf etmir. Burada daha bir müəmma baş verir: düşmən Qərblə İranın maraqları üst-üstə düşür. İranın Qafqaz uğrunda Rusiya ilə tarixi ədavətini nəzərə alsaq, belə qənaətə gəlmək olar ki, Tehranda uzaq Qərbin regionda aktivliyini qonşu Rusiya, Türkiyə və Azərbaycanın mövcudluğundan üstün tuturlar.

### MOLLA REJİMİNİN BİZNES MARAQLARI

İqtisadi səbəb. İranın hazırkı siyasətini biznes maraqları ilə də izah etmək olar. 44 günlük müharibədən sonra Zəngəzur dəhlizi ətrafında cərəyan edən hadisələr fonunda Ermənistanın "sülh kəsişməsi" adlı ölü doğulmuş təşəbbüsünün əsas sponsorlarının Fransa və İran olduğunu unutmayaq. Bu "layihə"yə əsasən, Hindistandan Avropaya uzanacaq "yol" İran və Ermənistandan keçməli idi. Bu logistik "hab"ın mərkəzi nöqtəsi də təbii ki, tarixən "dünyanın mərkəzi olan" Ermənistan idi. Avropa İttifaqının sponsorluğu ilə Ermənistan ərazisində nəqliyyat tunelinin inşasına dair xəbərlər də həmin dövrə təsadüf edirdi. Aydındır ki, Ermənistanın mürəkkəb və keçilməz relyefi fonunda hansısa beynəlxalq əhəmiyyətli nəqliyyat infrastrukturundan danışmaq əbəsdir. Bu tunel həmin problemin çözümü olmalı idi. İki milyard avroluq büdcə onun reallaşması önündə başlıca maneə oldu: pulu verməkdə heç, kim qaytaracaqdı?

İqtisadi səbəbi aktual edən daha bir məqam Zəngəzur dəhlizinin bir qolunun Araz çayı boyunca İrandan keçməsidir. 44 günlük müharibədən sonra bu nəqliyyat dəhlizini az qala hər gün hədələyən Tehran qəflətən onun öz ərazisindən keçməsinə razılıq verdi və Azərbaycanla müvafiq saziş imzaladı. Bu yolun çəkilişi hazırda da davam edir. Tehranın bu qərarı daha bir müəmmaya səbəb oldu: Zəngəzurdan keçəcək yolun İranın milli maraqlarına təhdid olduğu halda, İran ərazisindən keçməsi həmin maraqlara necə toxunmadı? Yəni İranın bütün bu hədə-qorxuları, hərbi manevrləri, raketlər və dronlara həsr olunmuş cizgi filmləri, patriotik klipləri geosiyasət deyil, sadəcə biznesdir?

Tehranın susqun reaksiyası çox davam edə bilməz. Bu susqunluğun pozulması üçün yetərincə dəlillər var. NATO-nun İranla sərhəddə yerləşməsi klerikal rejimi nə vaxtsa hövsələdən çıxaracaq. Əsl teatr onda başlayacaq. Silahın bütün istiqamətlərə atəş açmaq kimi xüsusiyyəti var. ABŞ istehsalı olan silahın da o cümlədən...

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# “BÖYÜK BACI”NIN XAM XƏYALLARI



STEFAN SEJURNE

Məhz Fransa kimi ölkələrin son 30 ildə Ermənistanın təcavüzünü ört-basdır edən siyasətinin heç bir fayda vermədiyi hər kəsə aydın olmalıdır. Paris anlamalıdır ki, destruktiv fəaliyyətə nə qədər ki, son qoyulmayıb, bu, həm Fransanın zərər görmüş imicinə, həm də hər vəchlə müdafiə etdiyi Ermənistana xeyir gətirməyəcək.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Bir neçə gün əvvəl Parisdən Azərbaycana qarşı növbəti əsası olmayan, həqiqətdən uzaq ittihamlar dalğası yönəldi. Fransanın Avropa və xarici işlər naziri Stefan Sejurne Parisdə ABŞ dövlət katibi ilə birgə mətbuat konfransı zamanı Ermənistanı “sülh göyərçini”, Azərbaycanı isə “təhlükə mənbəyi” elan etdi.

### TƏƏCCÜBLƏNDİRMƏYƏN BƏYANAT

Əslində son illərin təcrübəsi göstərir ki, Emmanuel Makronun rəhbərlik etdiyi Fransanın rəsmi dairələrinin məlum açıqlamalarında təəccübləndirən heç nə yoxdur. Parisin məqsədi Cənubi Qafqazda sülhə imkan verməmək, bütünlükdə bölgəni özünün növbəti müstəmləkəsinə çevirməkdir. Daha doğrusu, Afrikada, dünyanın digər bölgələrində üzləşdiyi məğlubiyyətlərin əvəzini bu yolla sığortalamaq. Nədənsə Makron düşünür ki, beynəlxalq münasibətlərin ən gərgin dövrünü yaşadığı indiki həssas məqamda bu məkrli planlarını həyata keçirtmək üçün ən uyğun seçim Cənubi Qafqazdır. Bəlkə də onu bu cür fikirləşməyə vadar edən əsas səbəb dövlət kimi varlığı ilə yoxluğu bilinməyən Ermənistandır.

### FRANSANIN HESABA ALMADIĞI REALLIQ

Ancaq Makron Fransasının hesaba almadığı bir fakt var. Cənubi Qafqaz dedikdə ilk yada düşən, qapısı döyülən müstəqil Azərbaycan dövləti. Bu, işğal dövründə də belə idi, indi də. Hazırda isə vəziyyət tamamilə fərqlidir. Haqq müharibəsindən tarixi zəfərlə çıxan güclü Azərbaycan və onun hərbi-siyasi təşəbbüsü ilə yaranan yeni reallıqlar var. Makronun utopik xəyalları isə Azərbaycanın Cənubi Qafqazda yaratdığı “real siyasət” anlayışı ilə bir-birinə tərs mütənasibdir. Fransanın Afrika və Yaxın Şərqdə həyata keçirdiyi aqressiv kolonializasiya siyasətinin gətirdiyi fəlakətlər göz önündədir. Bu səbəbdən, Paris Azərbaycanı ittiham etməkdənsə, bu siyasətinin acı fəsadlarından nəticə çıxarmalı, beynəlxalq hüququn norma və tələblərinə hörmətlə yanaşmaladır.

### CƏNUBİ QAFQAZA VƏD EDİLƏN “FİRAVAN GƏLƏCƏK”

Bir daha xatırlayaq. Aprel ayı həm də vaxtilə Fransanın müstəmləkəsi olan Əlcəzairdə yerli xalqın iradəsinə zidd olaraq ardıcıl nüvə bombası sınaqlarının başladığı zamandır. Parisin müstəmləkəsi olan Əlcəzair torpaqlarındakı bu sınaqları on minlərlə insanın həyatını məhv edib. Bölgədə ağır xəstəliklərin yayılmasına səbəb olub. Fransa hökuməti indi də Əlcəzairin haqlı tələblərinə baxmayaraq, nüvə tullantılarının basdırıldığı yerlərin xəritələrini qarşı tərəfə vermir. Ümumilikdə rəsmi məlumatlara əsasən, Fransa 1960-1996-cı illərdə müstəmləkəsi olan ərazilərdə 200-dən artıq nüvə sınağı həyata keçirib. Bu sınaqların heç birində təhlükəsizlik qaydalarına riayət edilməyib. Yerli əhaliyə isə “təcrübə dovşanları” kimi yanaşılıb. Budur fransız hegemonluğunun iç üzü. Budur makronkimilərin Azərbaycana, ümumilikdə Cənubi Qafqaza vəd etdiyi “firavan gələcək”. Azərbaycan dövləti tarixin bu qaranlıq səhifələrindən nəticə çıxararaq siyasətini, mövqeyini və addımlarını fransız təhlükəsinin zərərsizləşdirilməsi istiqamətində atsa da, təəssüf ki, eyni fikirləri Ermənistan haqqında demək mümkün deyil. Bir neçə il əvvəl Rusiyanı özlərinin əsas müttəfiqi sayanlar, indi rəy sorğularında Fransanı “böyük bacıları” hesab etdiklərini deyirlər. Ancaq “böyük bacı”nın bölgəyə gətirəcəyi fəlakətin miqyasını, sadə erməniləri vaxtilə digər müstəmləkələrindəki yerli əhaliyə münasibətdə olduğu kimi “təcrübə dovşan”larına çevirəcəyini anlamırlar.



## Parisə tərs şillə effekti

Fransanın kolonial keçmişini xatırladarkən nüvə sınaqlarının acı nəticələrinə təsadüfən toxunmadıq. Məsələ ondadır ki, vaxtilə Fransanın qəddar kolonial siyasətinin qurbanına çevrilən dövlətlərin yaşadığı bu dəhşətli fəlakətin təsiri özünü Avropada da büruzə verməkdədir. İki il öncə Saxaradan gələn toz buludlarının tərkibindəki radioaktiv maddələr bütün Cənubi Avropa sahillərini, hətta Ukraynanı belə əhatə etdi.

Bu gün Avropanın “yeni Napoleon”u olmağı hədəfləyən Makronun reallıqdan uzaq ambisiyalarının yarada biləcəyi fəlakətləri artıq Avropa ölkələri də anlayır. Onun Cənubi Qafqazda Ermənistanın əli ilə partlatmağa hazırlaşdığı “atom bombası”nın taymerini elə öz müttəfiqləri söndürmək istəyir.

Bu baxımdan İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çiriellinin Stefan Sejurnenin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması ilə bağlı bəyanatlarına reaksiyası xüsusilə diqqət çəkir. “Köhnə dünya”nın üçüncü ən böyük dövləti Parisin Cənubi Qafqaz siyasətini açıq dillə tənqid edir: “Fransa Cənubi Qafqazda sülhün bərqərar olması səylərini pozmamalıdır. Azərbaycan-Ermənistan sülh prosesində iştirak edən qurumlardan başqa, digər qurumların nümayəndələrinin hər hansı uzaqgörən bəyanatı gərginliyi daha da artıra bilər. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyasına ev sahibliyi edən Azərbaycan məsuliyyətli mövqe tutur. Fransa Respublikasının xarici işlər nazirinin ABŞ dövlət katibi ilə birgə mətbuat konfransında verdiyi açıqlamalar, şübhəsiz ki, vəziyyəti sakitləşdirməyə kömək etmir. Fransanın naziri Sejurnenin sağlam düşüncəni rəhbər tutaraq regionda davamlı sülhə nail olmaq üçün irəliləyənlərin səylərini sarsıtmaması məqsədəuyğun və faydalı olardı”.

Bəli, bu mövqe əslində Makron üçün tərs şillə effektinə bərabərdir. Vatikandan tutmuş Vaşinqtona qədər özünün “anti-Azərbaycan sevgisi”nə dəstək qazanmaq istəyən Fransa prezidentinə bağlı qapılar arxasında söylənənlər bu gün açıq şəkildə onun üzünə vurulur.



Edmondo Çirielli

## Makronun minalarının qurbanı Ermənistan olacaq

Parisin anti-Azərbaycan siyasətinin növbəti təzahürü olan Stefan Sejurnenin məlum bəyanatına rəsmi Bakının cavabı da özünü çox gözlətmədi. “Məhz Fransa kimi ölkələrin son 30 ildə Ermənistanın təcavüzünü ört-basdır edən siyasətinin heç bir fayda verməmdiyi hər kəsə aydın olmalıdır. Bununla, Fransa tərəfi anlamalıdır ki, onun tərəfindən həyata keçirilən bu kimi destruktiv fəaliyyətə nə qədər ki, son qoyulmayıb, bu həm Fransanın zərər görmüş imicinə, həm də hər vəchlə müdafiə etdiyi Ermənistana xeyir gətirməyəcək”, - deyə Azərbaycanın Xarici İşlər Nazirliyinin bəyanatında bildirilir.

Bəli, Makronun Cənubi Qafqazda basdırmağa çalışdığı minalar bu dəfə də partlamayacaq. Yaxud partlayacaqsa da, onun qurbanı Azərbaycan yox, Ermənistan və onun “böyük bacısı” olacaq.



# QƏRB GÜRCÜSTANA QARŞI

Gürcüstan hakimiyyətinin xarici agentlər haqqında qanun layihəsini yenidən müzakirəyə çıxarması ciddi etirazlara səbəb olub. Qərb institutları qanun qəbul edilərsə, Gürcüstanın Avropa İttifaqına üzv olmaq üçün namizəd statusunu itirə biləcəyi ilə bağlı xəbərdarlıq edirlər.



**AZƏR NURİYEV**

Qərblə Gürcüstan arasında növbəti gərginlik yaşanır. Hakim "Gürcü Arzusu-Demokratik Gürcüstan" Partiyasının "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsini yenidən parlamentə təqdim etməsinə Qərb dövlətləri sərt reaksiya verib. Gürcüstan bəyan edir ki, bu qanun layihəsinin qəbul edilməsinə səbəb ölkəyə xarici qüvvələrin təsirini azaltmaqdır. Qərb isə bunu Tbilisinin sürətlə Rusiyanın təsiri altına düşməsi kimi qiymətləndirir. Tbilisiyə Qərb dövlətlərinin səfirliklərindən və beynəlxalq qurumlardan birbaşa siqnallar gəlib ki, demokratik standartlara uyğun gəlməyən, Gürcüstanın Avropaya inteqrasiya prosesini çətinləşdirə biləcək bu qanunun təsdiqlənməsi son dərəcə arzuolunmazdır.

### HƏDƏFDƏ KİMLƏR VAR?

Maraqlıdır ki, bir vaxtlar Gürcüstanı demokratiyanın çırağı hesab edənlər indi onun bu tituldan uzaqlaşdığını iddia etməyə başlayıblar. Hakimiyyət isə iddiaları rədd edərək, qanun layihəsinin mütləq qəbul ediləcəyini bildirir. Hakim partiyanın icraçı katibi Mamuka Mdinaradze analoji təşəbbüsün kütləvi etirazlara səbəb olmasından bir il sonra xarici agentlərlə bağlı qanun layihəsini yenidən parlamentə təqdim etdiklərini açıqlayıb. O deyib ki, "xarici təsir agenti" termini istisna olmaqla, qanun layihəsinin mətni əvvəlki kimi saxlanılıb. Əvəzində "xarici gücün maraqlarını güdən təşkilat" anlayışından istifadə olunub. Qanunvericilik aktı yalnız məlumat məqsədlidir, xarici maraqların dirijoru kimi tanınacaq təşkilatların fəaliyyətini məhdudlaşdırmayacaq.

M.Mdinaradze əlavə edib ki, layihənin parlamentin yaz sessiyasının sonuna qədər qəbul edilməsi planlaşdırılır. Gəlirlərinin 20%-dən çoxu xaricdən gələn qeyri-kommersiya hüquqi şəxslər və mətbuat orqanları qanunun təsir dairəsində olacaq. Belə təşkilatlar hər ilin yanvar ayında Ədliyyə Nazirliyinə xərcləri haqqında bəyannamə təqdim etməlidirlər. Bu öhdəliyi yerinə yetirməsələr, 25 min lari (təxminən 9,3 min dollar) məbləğində cərimələnəcəklər.

## PREZİDENT QANUNU DƏSTƏKLƏYİR

Hakim partiyanın "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsini yenidən parlamentə təqdim etməsinə qarşı müxalifət əks mövqedə dayanıb. Prezident Salome Zurabişvili də onlarla həmrəydir. Prezident hökumətin bu addımını ölkənin Avropa İttifaqı yolunda təxribat adlandırıb.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze hesab edir ki, bəzi qeyri-hökumət təşkilatları xarici pullar hesabına Gürcüstanda radikalizmi qızışdırır, inqilabi prosesləri dəstəkləyir, seçkiləri saxtalaşdırmağa çalışır, müharibəyə çağırır və ümumilikdə psevdoliberal ideologiyanı yayırlar. "QHT-lərin və KİV-lərin yuxarıda qeyd olunan hərəkətləri donorların reputasiyasına mənfi təsir göstərir. İnanıram ki, "Xarici təsirin şəffaflığı haqqında" qanun bu mənfi tendensiyanın aradan qaldırılmasına mühüm töhfə verəcək", - deyə Kobaxidze bildirib.

Parlament sədrinin müavini Giya Volski də hesab edir ki, "tamamilə normal qanun layihəsinə qəzəbli münasibət" Gürcüstanda sabitliyi pozmaq üçün vətəndaş fəallarının xaricdən aldığı pula ehtiyacı olduğunu nümayiş etdirir.

Onların hamısı vurğulayır ki, xarici agentlər haqqında qanun, məsələn, ABŞ, Aİ ölkələri, Böyük Britaniya, Kanada və Ukraynada da qüvvədədir.

### "ÖLKƏNİ SINDIRMAQ İSTƏYİRLƏR"

Lakin Gürcüstan müxalifətinin bu məsələyə münasibəti fərqlidir. Məsələn, müxalifətçi deputat Xatia Dekanoidze hesab edir ki, "Gürcü arzusu" bu qanunu qəbul etməklə ölkəni sındırmaq istəyir: "Siz Avropa İttifaqına üzvlüklə bağlı danışıqlar başlamazdan əvvəl Rusiya qanunlarını geri qaytaran siyasi qüvvəsiniz".

Müxalifət liderlərindən olan Zurab Caparidze xatırladıb ki, bir il əvvəl vətəndaş cəmiyyəti hökumətin qalmaqallı qanun layihəsini qəbul etməsinə mane ola bilib, lakin hakimiyyət hələ də öz ideyasından əl çəkməyib, müstəqil QHT-lərə və mediaya təzyiqlərini dayandırmayıb. Bu səbəbdən o hesab edir ki, yenidən parlamentə göndərilən qanunvericilik təşəbbüsü ilə deyil, ölkə rəhbərliyi ilə mübarizə aparmaq lazımdır. Caparidze bu il oktyabrın 26-da keçiriləcək parlament seçkilərində hakimiyyəti dəyişdirməyi təklif edib.

### ABŞ DƏ, BMT DƏ NARAHATDIR

İş o yerə çatıb ki, Qərb institutları qanunun qəbulu ilə əlaqədar Gürcüstanın Avropa İttifaqına üzv olmaq üçün namizəd statusunu itirə biləcəyi ilə bağlı xəbərdarlıq ediblər. BMT-nin İnsan Haqları ofisi də Gürcüstan hökumətini "Xarici təsirlərin şəffaflığı haqqında" qanun layihəsini qəbul etməməyə çağırıb. ABŞ senatorları isə bildiriblər ki, Tbilisinin xarici agentlər haqqında qanun layihəsini gündəmə qaytardığını müşahidə etmək həddindən artıq məyusedicidir. Dövlət Departamentinin sözçüsü Metyu Miller qanun layihəsinin Gürcüstanı Avropa yolundan uzaqlaşdıracağından və vətəndaşların həyatını yaxşılaşdıran vətəndaş cəmiyyəti təşkilatlarına zərər verəcəyindən çox narahat olduqlarını bildirib.



Zurab Caparidze

İrakli Kobaxidze

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17

E-mail: kaspiqazeti@kaspi.az

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





# YOXSULLA ZƏNGİN ARASINDA KÖRPÜ QURAN BAYRAM

“Adətən, bayram günü süfrələr açılır, xəstələrə baş çəkilir, qəbirüstü ziyarətlərə gedilir. İnsanlar bir-birini görürlər, təmasda olurlar və küsülülər barışır”



AYGÜN ASİMQIZI

İslam dininin beş şərti var, onlardan biri də oruc tutmaqdır. Buna riayət edən, sağlamlığı imkan verən müsəlmanlar hər il 11 ayın sultanı olan Ramazanda bir ay oruc tuturlar. Bir ayın sonunda isə oruc dayandırılır və Ramazan bayramı qeyd edilir. Bu gün məhz o gün - Ramazan bayramıdır. Bəs bu bir ayda nə qazandıq? Bayramı necə qeyd etməliyik?

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədr müavini, ilahiyyatçı-alim Fuad Nurullayev deyir ki, bir ay oruc tutmaq insana böyük dəyərlər bəxş edir: “Oruc sözü ərəbcədən tərcümədə mənən, ruhən ən yüksək məqama qalxmaq deməkdir. Oruc tutan Ramazanda təkcə mədəsini ac saxlamır, eyni zamanda gözünə, dilinə, əlinə, ayağına - bütün bədən üzvlərinə diqqət edir. Dil yalan danışmasın, göz harama, günaha baxmasın. Dünya aclıq, susuzluqla üz-üzədir, paltarı olmayan insanlar var. Maddi-mənəvi ehtiyacları olan insanlar var. Oruclluqda insan bir ay bunu yaşayır və onların nələr hiss etdiyini düşünür. Oruc tutan şəxs nəfsi ilə mübarizə aparır, iradəsini möhkəmləndirir. Bu ayda insanlar arasında səmimiyyət, mehribanlıq yaranır, bir çox səhv əməllərə tövbə edilir. Günahlar varsa, yadına düşür, Allahdan bağışlanmaq, saflıq, paklıq istəyir. İnsanlığa hansı dəyərlər lazımdırsa, onu Ramazanda insan layiqincə qazana bilir. Bir ay boyunca insan bu cəhətdən öz üzərində çalışdıqca, ilin digər 11 ayında da buna riayət edir”.

### “BAYRAM GÜNÜ ORUC TUTMAQ OLMAZ”

İlahiyyatçı Ağa Hacıbəyli bildirdi ki, bu gün bayramdır və oruc tutmaq olmaz: “Bayram günü sübh namazı qılmaq üçün qalxırıq, amma bu, imsak deyil. Çünki bayram günü oruc tutulmur. Bayram günü oruc tutmaq haram sayılır. Sübh namazı bitdikdən sonra gözəl qusul alınır, ən gözəl paltar geyinilir, ətirlənilir və bayram namazı üçün məscidlərə üz tutulur. Çünki Ramazan bayramının önəmli tərəflərindən biri də ilahi təzimlə, təkbir sədaları ilə başlamasıdır”.

Qeyd edək ki, bəzi məscidlərdə bayram namazı saat 08:00-da, bəzilərində isə 09:00-da qılınacaq.

Ağa Hacıbəyli bu namazın toplu halda qılınmasının bayramın mahiyyətinə daha uyğun olduğun deyir: “Bayram namazı vacib namaz deyil, amma Peyğəmbərimizin (s) ümməti bu namazın qılındığı yeri əfv fərmanının verildiyi, mələklərin endiyi məkan olaraq biliblər. Ona görə bu namazı toplu olaraq qılmağa çalışıblar. Bakıda kifayət qədər məscid var. Kənd yerlərində məscid olmazsa, ailə, yaxud 5-6 qonşu da toplaşıb bir yerdə qıla bilərlər”.

“Namaz qılmayıb oruc tutanlar da bayram namazına qatıla bilərlər”, - deyə A.Hacıbəyli bildirdi.

### FİTRƏ ZƏKATINI NƏ ZAMAN VERMƏLİ?

İki rükətlik namazdan sonra bayramlaşma başlayır. Bayramın özəl tərəflərindən biri də fitrə zəkatının çıxarılmasıdır. A.Hacıbəyli hər kəsin buna diqqət etməli olduğunu bildirir: “Allahın Rəsulu (s.a.s.) buyurur ki, tutduğunuz oruclar səmadan asılı vəziyyətdədir. Fitrə sədəqəsini çıxarmaqla asılı vəziyyətdə olan orucunuzu Allah dərgahına qəbul etdirirsiniz. Bu, o deməkdir ki, cəmiyyətdə fəqir-füqəralar, yoxsul insanlar var və onları da sevindirməlisiniz. Bu bayram zəngin adamlarla yoxsullar arasında körpü qurur”.

Fitrə zəkatının nə zaman verilməsinə gəlincə, A.Hacıbəyli bunu bir cümlə ilə ifadə etdi: “Ramazan boyunca fitrənin çıxarılması müstəhəb - yəni bəyənilən, bayram günü vacib, bayramdan sonra isə məkruhdur - yəni bəyənilmir”.

A.Hacıbəyli fitrənin hansı formada verilməsinin isə vəziyyətə görə dəyişdiyini bildirdi: “Ola bilər ki, kənd yerində fitrə sədəqəsinin məhsulla verilməsi daha məqbuldur, nəinki pulla. Ancaq şəhər yerində buğda, arpa, üzümdən daha çox pula ehtiyac olur. Kənddə də elə vəziyyət ola bilər ki, pulla yardım daha yaxşı olar”.

## MİNİMUM 10 MANAT FİTRƏ

Qafqaz Müsəlmanları İdarəsi fitrə zəkatının pulla hesablanmış məbləğini bu il adambaşına minimum 10 manatdan götürməyi tövsiyə edir. Fuad Nurullayev deyir ki, maksimum yardımın limiti yoxdur: “Fitrə sədəqəsinin adambaşına düşən minimum miqdarı üç kiloqram un və ya buğdanın qiyməti ilə hesablanır. QMİ tövsiyə edir ki, hər ailə üzvü üçün 10 manat hesablansa, gözəl olar. Təbii ki imkan varsa, daha çox yardım edək”.

Ağa Hacıbəylinin sözlərinə görə, fitrə zəkatı verən zaman əliaçıq olmaq lazımdır: “81 qram qızılı olan şəxs dinimizdə zəngin hesab edilir. Bu adam fitrə sədəqəsi çıxarmalıdır. Bəzən imkanlı şəxslər fitrə sədəqəsi çıxaran zaman maraqlanırlar ki, görəsən, Qafqaz Müsəlmanları İdarəsi fitrə sədəqəsini neçə manat təyin edib? 10 manat minimum rəqəmdir. Zəngin adamlarımıza üz tutub deyərdim ki, kisənizin ağzını açın”.



Ağa Hacıbəyli

Fuad Nurullayev

### “BAYRAM TƏBRİKLƏRİNƏ ŞƏHİD AİLƏLƏRİNDƏN BAŞLAYAQ”

A.Hacıbəyli fitrə zəkatının ehtiyacı olan insanlara verilməli olduğunu da dedi: “Sədəqə alan adamlar var, onlar bu günləri yaxşı bilirlər. Məscidlərdə gəlib yalvarıb-yaxarıb fitrə sədəqəsini alırlar. Fitrəni onlara deyil, doğru şəxsə vermək üçün kimə verəcəyinizi öncədən müəyyənləşdirin. “Qurani-Kərim”in bir ayəsində deyilir: “Bir insan bədəninin ayıb yeri açıq qalanda onu örtdüyü kimi, insan fəqirliyi olduğu zaman onu ört-basdır etməyə çalışır ki, kənardan bilinməsin”. Əsl ehtiyaclı insanlar onlardır. Onları tapıb sevindirmək lazımdır”.

Hər iki din xadiminin məsləhəti belə oldu: “Bayram təbriklərinə mütləq qazilərdən, şəhid ailələrindən başlamaq lazımdır”.

Fuad Nurullayev deyir ki, müsəlman üçün bayram günah etmədiyi, yaxşı işlərlə məşğul olduğu gündür. Ona görə bu gün mümkün qədər yaxşı işlər görməyə çalışmaq lazımdır: “Adətən, bayram günü süfrələr açılır, xəstələrə baş çəkilir, qəbirüstü ziyarətlərə gedilir. İnsanlar bir-birini görürlər, təmasda olurlar və küsülülər barışır”.

# TOY BİZNESİ XİLAS OLA BİLƏCƏKMİ?



Toy mövsümünə start verilir. Lakin toy biznesi sahəsində mövcud vəziyyət heç də ürəkaçan deyil. Son zamanlar şadlıq saraylarının sürətlə profillərini dəyişdiyini də müşahidə edirik.

SEVİNC ABBASOVA

Ramazan ayı başa çatdı. Bu ayın başa çatması ilə həm də yeni toy mövsümü başlayır. Amma sirr deyil ki, pandemiyadan sonra toy biznesi ciddi böhrandadır. Müşahidələr göstərir ki, xeyli şadlıq sarayları mərasim evlərinə çevrilib, başqa sahələr üzrə icarəyə verilib.

Azərbaycanda toy məclislərinin sayının kəskin şəkildə azaldığını rəsmi statistika da təsdiqləyir. Təkcə son üç ilin statistikasına nəzər salsaq görərik ki, nikaha daxil olanların sayında əhəmiyyətli şəkildə azalma var. Məsələn, ölkədə 2024-cü ilin ilk ayında 3 657 nikah qeydə alınıb. 2023-cü ildə müvafiq olaraq 11 870 nikah bağlanılıb. 2022-ci ilin yanvar-mart aylarında isə 14 606 nikah rəsmiləşdirilib.

Bəs görəsən, toy sənayesi böhrandan çıxa biləcək? Bunun üçün sahibkarlar hansı addım ata bilərlər? Bu sektora dövlətin hansı dəstəyi ola bilər?



### XƏRC YÜKÜ YARADAN TOY ƏNƏNƏSİ

İqtisadçı ekspert Rəşad Həsənovun sözlərinə görə, toy biznesinin böhranda olmasının əsas səbəbi son dövrlərdə nikahların sayının azalmasıdır: "Eyni zamanda, biz xüsusilə pandemiyadan sonrakı dövrdə gənclərin daha rasional toy məclislərinin təşkilinə üstünlük verdiyini müşahidə edirik. Belə ki, onlar nisbətən daha az dəbdəbəli, əsasən yaxın ətrafları ilə toy etməyə üstünlük verirlər. Nəticə etibarilə, daha çox 2005-ci ildən sonra formalaşan və dəbdəbənin artması ilə müşahidə olunan, artıq xərc yükü yaradan toy ənənəsi mərhələli şəkildə zəifləyəcək".

### "İNVESTORLAR DAHA EFFEKTİV SAHƏLƏRƏ YATIRIM ETMƏLİDİRLƏR"

Ekspert hesab edir ki, bu sahədə fəaliyyət göstərən sabibkarlar öz investisiyalarını alternativ istiqamətlərə yönəltməlidirlər: "Sahibkarlar bu sahədə dəbdəbəni artırmaq istiqamətində investisiyalardan çəkinməlidirlər. Daha optimal sayda tutumu olan sarayların qurulmasına meyllənməlidirlər. Eyni zamanda, infrastrukturu elə dizayn etməlidirlər ki, bu təyinat fərqli istiqamətlərdə də istifadə oluna bilsin. Tutaq ki, həmin obyektlərdən yalnız toy məclisləri üçün deyil, adi günlərdə, kütləvi tədbirlərin, konsertlərin təşkili və sair kimi də istifadə etmək mümkün olsun".

Mütəxəssis dövlətin bu sahəyə dəstəyini vacib saymır. O hesab edir ki, dövlətin dəstək verməli olduğu kifayət qədər sahələr mövcuddur: "Düzdür, bura da xidmət sektorudur, müəyyən bir dövriyyə yaradır. Amma dövlətin dəstək verməli olduğu kifayət qədər sahələr vardır. Hesab edirəm ki, dövlət daha ağlabatan, ciddi sərmayələri dəstəkləməlidir".

## MENYULARIN TƏRTİBATINA YENİDƏN BAXMALIDIRLAR

İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri Ruslan Atakişiyev hesab edir ki, şadlıq sarayları menyuların tərtibatına yenidən baxmalıdırlar. Onun fikrincə, toy sənayesində mövcud olan iqtisadi çətinliklər menyuların qiymətinin baha olması ilə bağlıdır: "Menyulardan lüzumsuz əlavələr çıxarılmalıdır. Şadlıq sarayları toy sahiblərinə meynu seçimi ilə bağlı şərt qoymamalıdırlar. Atəşfəşanlıq, toya dəvət olunan musiqiçilərlə bağlı da qiymətlərə yenidən baxılmalıdır. Çünki bunlar da çox xərc tələb edən istiqamətlərdir".



Ruslan Atakişiyev

R.Atakişiyevin qənaətincə, bu sahəyə dövlət tərəfindən dəstək verilməsi gözlənilmir: "Çünki bu sektor dövlət üçün strateji sahə sayılmır".

### "KİM DEYİR Kİ, BU SAHƏDƏ BÖHRANDIR?"

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, Rüfət Quliyev isə toy sənayesinin böhranda olması fikri ilə razılaşmır. Onun sözlərinə görə, bu gün də şadlıq saraylarında toy etmək üçün aylar öncədən növbəyə yazılmaq lazımdır: "Kim deyir ki, bu sahədə böhrandır? Təxminən 1-2 ay əvvəl yaxın bir qohumum toyla bağlı şadlıq sarayı axtarırdı. Onlara bildirmişdilər ki, ən yaxşı halda toy tarixini oktyabr, noyabr və dekabr ayına yaza bilərlər. Belə olan halda hansı böhrandan söhbət gedir? Heç bir böhran yoxdur, hamı da işləyir. Sadəcə, məni həm vətəndaş, həm də millət vəkili olaraq toyların dəbdəbəli keçirilməsi narahat edir. Biz bu məsələni bir qədər sadələşdirməliyik. Toy gənclər üçündür, sadə bir ortamda olmalıdır. Amma mən toy xərclərini eşidəndə dəhşətə gəlirəm. Menyular adambaşı təxminən 100 manatdan başlayıb, 500-700 manata kimi dəyişir. Axı bu qədər israfçılıq olmaz".



Rüfət Quliyev

## BİR VAXTLAR AYDA 20-25 TOY, İNDİ İSƏ...

Əvvəllər toy mövsümünü səbirsizliklə gözləyən və yeni mövsümə ciddi şəkildə hazırlıq görən şadlıq saraylarında durğunluqdur. Onlar da bu durğunluğun səbəbinin axtarışındadırlar. Həmsöhbət olduğumuz bəzi şadlıq saraylarının adminstratorları bildirirlər ki, vəziyyət son iki ildə daha pisləşib. Onların sözlərinə görə, bir vaxtlar ayda 20-25 toy şənliyi təşkil edirdilərsə, indi 4-5 toy tutanda sevinirlər.

"Mega Palace" şadlıq sarayından bildiriblər ki, tələbat əvvəlki illərlə müqayisədə xeyli azalıb: "Əvvəlki dövrlərlə müqayisədə toy edənlərin sayında ciddi fərq var. Tələbat çox azalıb. Səbəbini özümüz də bilmirik".

"Su Səsi" şadlıq sarayının administratoru da toyların azlığından gileylənib. Onun sözlərinə görə, toyların sayında təxminən 50 faiz azalma var: "Qiymətlərimiz də baha deyil. Sadəcə, elə bil ki, toy etmək istəyən yoxdur. Son iki ildə vəziyyət daha da pisləşib".

"Neolit Hall"dan da təsdiqləyiblər ki, ötən illərlə müqayisədə toy etmək istəyənlərin sayı ciddi şəkildə azalıb: "Əvvəllər mövsüm başlayanda bir ayda 12-14 toyumuz olurdu. Amma bu ilin aprel ayına 5-6 toyumuz var. İndi toy edənlər daha yığcam məclislərə üstünlük verirlər. Deməli olar ki, artıq 500-600 nəfərlik toy edən yoxdur. İndi müraciətlər 150, maksimum 350 nəfərlik məclislərin təşkili ilə bağlıdır".

MƏŞHUR PSİXOLOQ SON İLLƏRDƏ ÖLKƏMİZDƏ ARTAN BOŞANMA HALLARININ ƏSL SƏBƏBLƏRİNİ AÇIQLAYIR

# Ailə yeniyetmələrə xas ROMANTiK AĞILLA QURULMAMALIDIR



SÖHBƏTLƏŞDİ
AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az


**Nizami Orucov:** "Adam şirkət rəhbəridir, kişi kimi cəmiyyətdə müəyyən yükü var, amma valideynlərindən icazə almadan addım atmır".

**Fotolar:** Sabir Məmmədov/Global Media Group

Təhlükədə olan Azərbaycan ailə modeli, ailələrdə uşaq sayının azalması, qohumluq əlaqələrinin soyuması, gənclərin ailə qurmaqdan çəkinməsi, insanların getdikcə təkliyi seçmələri cəmiyyətin narahat olduğu, mətbuatda daim müzakirə edilən məqamlardır. Biz də "mən hazırda bu məsələlərin yaratdığı fəsadlarla işləyirəm" deyən mütəxəssislə söhbətləşdik.



## "Kaspi" qəzetinin müsahibi psixoloq Nizami Orucovdur

**● Nizami bəy, əvvəllər ailələrin əksəriyyəti çoxuşaqlı idi. Yəni, hər bir uşağın əmisi, dayısı, bibisi, xalası olurdu. İndi əksər ailələrdə əmi, dayı, bibi, xala ya ümumiyyətlə, yoxdur, ya da azdır. Təkuşaqlı ailələrdə qohumluq bağlarının zəifləməsinin o uşaq üçün hansısa fəsadları ola bilərmi?**

● Tək uşağın özünəməxsus problemləri olur. Çünki bütün diqqət, sevgi sənindir, hər şey sənə aiddir. Bu zaman eqoizm məsələsi baş qaldırır. Şəxsiyyət kimi formalaşmaqda rol oynayan amillərdən biri ətrafda insanların çoxluğu, ailədə yaxın münasibətlərin olmasıdır. Qohumluq əlaqələri güclü olduqda isə insan kiməsə arxalanır. Konsultasiyada da çox vaxt rastlaşmışam ki, insanlar valideynlərindən travma aldıqda, həyatda ayaq üstdə durma səbəblərindən biri kimi xala, bibilərinin varlığını göstərirlər. Lakin son vaxtlar bu dəyərləri getdikcə yeniləri əvəzləyir. Təəssüf ki, Avropa ölkələrinin əziyyət çəkdiyi yalnızlıq, təcridolunma bizə də sirayət edir. Məhz təklik səbəbindən inkişaf etmiş ölkələrdə intiharların sayı artır. Təəssüf ki, bizim də ailə modelimiz ona doğru gedir.

### ÖVLADINA ANORMAL DƏRƏCƏDƏ BAĞLI OLAN ANALAR

**● Paylaşımlarınızda Azərbaycanda ailələrin 90 faizinin valideyn müdaxilələrinə görə dağıldığını deyirsiniz. Maraqlıdır, ailələrin təkuşaqlı olmasının buna təsiri varmı? Deyə bilərikmi ki, tək övladı olan valideyn bütün həyatını ona bağlayır və nəzarəti daha güclü olur?**

● Bəli, övladına anormal dərəcədə bağlı olan analar problemi var. Bu, tək oğul övladı ilə bağlı deyil. Qızının da həyatına müdaxilə edən kifayət qədər ana var. Təbii ki, hər bir valideynin övladı onun üçün əzizdir. Lakin bizdə bəzən bir qadının həyatının bütün mənası övladları olur. Öz həyatı doğru-düzgün deyil, uşağın atası ilə münasibətləri yaxşı olmur, məşğul olacaq işi yoxdur deyə, həyatdakı bütün məna və məntiq övlada bağlıdır. Bu o deməkdir ki, sən övladının həyatı ilə yaşayırsan. Onların ailə həyatının qurulmasında, kimlə yaxınlıq etməsində, ən xırda detallara qədər hər şeyə müdaxilə edirlər. Övlad ayrıca fərddir, ona müdaxilə olmaz. Lakin valideynlər bunu qəbullanmır. Bəli, Azərbaycanda bu gün ailələrin 90 faizi müdaxilələrə görə dağılır. Çünki valideyn üçün bu nəzarəti itirmək onlara həyatda hər şeylərini itirmək kimi gəlir.

**● Pasiyentlərinizlə söhbətinizdən müdaxilələrlə bağlı real həyat nümunələrini göstərə bilərsinizmi?**

● Məsələn, ana olub ki, yeni evlilərin yataq otağına girir, gəlindən soruşur ki, oğlum hansı tərəfdə yatır? Gəlin deyir ki, pəncərə tərəfi sevir. Ana əsəbiləşir ki, sabahdan bu tərəfdə yatsın, oğluma soyuq olar. Yaxud, qız anası qızı hamilə olub, həyat yoldaşından xəbərsiz abort etdirib ki, sən hələ hamiləliyə hazır deyilsən. Bu nəzarətlər anormal hadisələrə yol açır.

### "BUNU AVROPADA PSİXOLOQA DANIŞSAQ, GÜLƏR..."

**● Belə çıxır ki, gəlin-qayınana problemlərinin kökündə nəzarət dayanır? Yaxud problem ancaq analardanmı qaynaqlanır?**

● Ana ilə övlad arasında münasibətlərdən qaynaqlanır. Normalda mən ailə qurmuşamsa, deməli, bu ailənin nəzarəti həyat yoldaşımlaməndədir. Öz anama, atama deyə bilməliyəm ki, şəxsi sərhədlər qorunmalıdır. Məsələn, beş konsultasiyanın dördündə eşitdiyimiz ciddi problemlərdən biri odur ki, ailə quran şəxslər, yaxud cütlüklərdən biri ana-atasına demədən rayona belə istirahətə gedə bilmirlər. Adam şirkət rəhbəridir, kişi kimi cəmiyyətdə müəyyən yükü var, amma valideynlərindən icazə almadan addım atmır. Bu problem dəhşətli dərəcədə çox yayılıb. Ana və övladın bu bağlılığı ailə həyatına ciddi şəkildə yansıyır. Bunu biz Avropada psixoloqa danışsaq, bizə gülərlər.

**● Bu problem əvvəl də var idi, yoxsa son dövrlər daha qabarıqdır? Bəzən deyirlər çoxuşaqlı ailələrdə valideynin yükü daha çox olduğu üçün müdaxilə edə bilmirdi.**

● Əvvəllər qız anası daha ağır tərəf olurdu. Qayınanalar indiyə nisbətən kənarda qala bilirdilər. Çünki onların qarşısını alırdılar. Bizim cəmiyyətdə hazırda qadının hegemonluğu daha çoxdur. Keçmişdəki ailə dəyərlərində bir qadının qarşısında dayanan olurdu. Ailədən kənarda dayı, qardaş, ağsaqqal izah edirdi ki, gənclərin həyatına müdaxilə etmək olmaz. Bunu real həyat hadisələrindən görürəm. Amma sənin beş uşağın varsa, təbii ki, beşinə də eyni cür təsir edə bilmirsən. Amma burada da həll yolu kimi çox vaxt övladlardan ən zəifi seçilir. Təbii ki, təkuşaqlı ailələrdə müdaxilənin miqyası daha çoxdur.

**● "Qohumlarımın dəstəyi ilə güclü olmuşam", dediniz. "Qohum mikrobdur, uzaq durmaq lazımdır" kimi fikirlər də var. Mahnılarda, verilişlərdə də bu fikirlər təbliğ olunur. Həqiqətən, qohumdan uzaq durmaq lazımdır?**

● Bu sualın birmənalı cavabı yoxdur. Mənim də toksik qohumlarla bağlı videolarım var. İzah etmişəm ki, sizin həyatınızı zəhərləyən, düşmənçilik edən qohumlardan, təbii olaraq, uzaq durmalısınız. Amma ümumi olaraq, qohumlardan uzaq durmağı təbliğ etmək düzgün deyil.

### "AİLƏ DƏYƏRLƏRİ ÜÇÜN QADIN SUSMALIDIR?"

**● Ailə dəyərlərinin silinməsindən danışırsınız. Sizcə, nə üçün Azərbaycan ailə modeli təhlükədədir?**

● Ailə dəyərləri deyəndə, "qız qaşına evliliyə qədər toxunmamalıdır", "namus itər" kimi avam, cəfəngiyyat dolu hər hansı məsələni nəzərdə tutmuram. Yaxud da "qadın susmalıdır, gülməməlidir, küçədə başı aşağı olmalıdır" kimi düşüncələrdən danışmıram. Ailə dəyəri ümumbəşəridir və hər ölkədə bu belədir. Bizdə müəyyən yerlərdə ABŞ, Avropanı fərqli təqdim edirlər, ABŞ-də Texası araşdırsalar, öz dəyərlərini qorumaq üçün apardıqları mübarizədən xəbərdar olarlar. Yaponiyadakı ana-ataya hörmətlə, Azərbaycandakı ana-ataya hörmət nə qədər fərqlənə bilər ki? Ailə dəyərləri min illər ərzində xalqların, millətlərin süzgəcindən keçərək bizə gəlib çıxan məlumatlardır. Yaxud, kimsə deyir "mən dörd qadınla yaşayacağam, bizə halal buyurulub". Bu cəhətlər bizə xas deyil axı. Kim razılıq verər ki, öz bacısı, qızı üçüncü arvad olsun. Bizim özümüzə xas dəyərlərimiz var. O dəyərlərdə kişi ilə qadın həmişə bərabər olub. Kişi qoruyucu, qadın yaradıcı olub. Müasir həyat, iqtisadi vəziyyətin dəyişməsi bəzi dəyərləri redaktə edir. Amma müasirliyi də nəzərə alaraq, o dəyərləri qorumalıyıq.

*"Kim razılıq verər ki, öz bacısı, qızı üçüncü arvad olsun. Bizim özümüzə xas dəyərlərimiz var. O dəyərlərdə kişi ilə qadın həmişə bərabər olub. Kişi qoruyucu, qadın yaradıcı olub."*

**● Bu gün gənclər ailə qurmaqdan çəkinirlər. Buna səbəb nədir?**

● Gənclər nəsil artırmaq, məsuliyyət, öhdəlik götürmək istəmirlər. İnsan həyata zövq mənbəyi kimi baxmağa çalışır. Orada nə ər, nə qadın, nə uşaqlar, nə ailə rol oynayır. Bundan əlavə, ikinci əsas məsələ gənclərin gözünün evlilikdən qorxmasıdır. Ya öz ana-atalarının münasibətlərinə baxıb evlilikdən iyrəniblər, ya real həyatda ətrafında baş verən hadisələrdən qorxublar. Xəyanət, aldadılma, uğursuz seçim, yaxud "evlənsəm bədbəxt olaram" qorxusu onları bu qərardan uzaqlaşdırır.

### "EVLİLİYƏ OLAN YANAŞMA İLƏ MÜBARİZƏ APARMALIYIQ"

**● Bu gün Azərbaycanda boşanmaların sayı rekord həddə çatır. Sizcə, səbəb nədir? Yanlış evliliklər, yoxsa bir-birini yola verə bilməmək?**

● Ailə dəyərlərini dəstəkləyirəm, amma tək çıxış yolunun boşanmaq olduğu məqamlar da çoxdur. Mən həmişə gənclərə deyirəm ki, siz sevib, sevilib, sevişməlisiniz. Yəni, ailə qurub həyatı yaşamalısınız. Oturub bir-birinizin həyatını məhv etməklə, aşağılamaqla, zədələməklə ailəni apara bilməzsiniz. Bu, ailə deyil. İnsanların onsuz da həyat yükü çoxdur, ailə qurduğu şəxslə də (qadın ya kişi - fərq etməz) bir-birinə dəstək olmalıdırlar. Boşanmalarda məcburi hallar var, amma son vaxtlar bu hallara "yola getmirik" əlavə edildi. Bu sözlə manipulyasiya üçün çox böyük sahə açılır. Yaxud, xarakterimiz uyğun gəlmədi, ayrıldıq. Sən uyğunlaşmaq üçün nə etdin? Bəzi ölkələrdə siz gedib hakimə boşanıram deyib, boşana bilməzsiniz, dövlətə sübut etməlisiniz ki, bu ailə dağılmalıdır. İnsanlar bu gün rahata qaçırlar, başa düşmürlər ki, münasibət qarşılıqlı olur. Bəzən qadın da addım atmalıdır, nələrisə dəyişməyə çalışmalıdır. Bizdə əksər ailələrdə hər addım kişidən gözlənilir. Heç kim öz payına düşəni etmir. Ailəni xilas etmək üçün əksər hallarda iki tərəf mübarizə aparmır, çünki boşanmaq rahat çıxış yoludur. Bu gün kişilər də əlavə əziyyət çəkmək, öz üzərində işləmək, inkişaf etmək, ailəsinin komfortunu artırmaq, maddi müstəqilliyini inkişaf etdriməkdən çəkinirlər. Beş gün işləyib, həftəsonu dominoya qaçmaqla, ailəni xilas etmək olmaz.



**● Ailə qurarkən iki gənc nələri gözardı edirlər?**

● İlk növbədə həyati önəm daşıyan məsələlərdə baxışlarının üst-üstə düşməsinə diqqət etməlidirlər. Biz boşanma ilə deyil, evliliyə olan yanaşma ilə mübarizə aparmalıyıq. Qalib gəlsək, boşanmaların sayı azalacaq. İki gənc evlənir, sual verirəm ki, gələcəklə bağlı planınız nədir? Oğlan deyir Fransaya köçəcəyəm, xanım deyir mən Bakıda yaşamaq istəyirəm. Deyirəm, bunu öz aranızda danışmışınız? Deyirlər, yox. Evliliyin əsasını təşkil edən məsələlər müzakirə edilməlidir. Ailə yalnız sevgi və ehtirasın üzərində qurulmamalıdır. Çünki onlar daimi deyil, həyat belədir. Cütlüklər iki yad insan kimi evlənirlər. Gənclər evlilikdən əvvəl bir-birini tanımaları üçün suallar verməli, daha sonra cavablara əsasən, onunla yaşayıb-yaşamamağı düşünməlidir. Ailə yeniyetmələrə xas romantik ağılla qurulmamalıdır.



## "BU, CƏFƏNGİYYAT VƏ AVAMLIQDIR"

**● Əksər ailələrin ən böyük məsləhəti "evlən, düzələcək"dir. Evlənəndə düzəlir?**

● Milli bədbəxt xüsusiyyətlərimizin başında "evlən, düzələcək" cümləsi gəlir. Elə bil ki, evlilik bir terapiyadır və ora düşən sağalır. Bu, ümumiyyətlə bir çox insanların digər insanı bədbəxt etməsi üçün bir alətdir. Oğlanın narkoloji asılılığı var, "evlən, düzələcək", deyirlər. Sanki problemlər insanın həyatında kişinin yaxud qadının olmamasından qaynaqlanır. Bu, ümumiyyətlə, yaxın buraxılmamalı olan, ciddi mübarizə aparılmalı məsələdir. Bu, cəfəngiyyat və avamlıqdır. Evlilik artıq düzəlmiş insanların girməli olduğu münasibətdir.

**● Uşaqların tərbiyəsindən danışaq. Uşağın sağlam böyüməsi üçün tərbiyə metodu necə seçilməlidir?**

● Bununla bağlı maraqlı təcrübə aparılıb. Professor tələbələrinə deyir ki, hamı əlində üç tutsun, amma özü dörd göstərir. Zal professorun əlinə baxıb dörd göstərir. Çünki professor üçü sözdə deyir, dördü isə göstərir. 90-cı illərin uşaqlarının əksəriyyəti illərlə atanın Rusiyada pul qazanmasını, analarının döyülməyini, söyülməyini, öz həyatının olmamasını, özünü övlada həsr etməsini, anormal bir kişi üçün özünü qurban verməsini gördülər. Hər kəs gördüyünü götürür. İnsanların böyük hissəsi elə bilirlər ki, bir variant var. Anam söyülüb-döyülüb, deməli norma qadının söyülməsidir. Atam ömür boyu əziyyət çəkib, üzü gülməyib, deməli mən kişinin üzü gülməməlidir. Millət olaraq alternativ fikir tərzini yaxın buraxmırıq. Gördüyümüzü götürmüşük və tətbiq edirik. Bu stereotipləri qırmalıyıq. O qədər pasiyentlərim var ki, deyir necə olur ki, uşaq vaxtı döyülmüşəm, bunu sizə şikayət edirəm, amma özüm də övladımı döyürəm. Uşağını tərbiyə etmək istəyən, birinci özünü tərbiyə etməlidir. Övlad da ləyaqətli ata-ana görməlidir. Söyüş eşitsə, söyüş götürəcək. Bizdə bəzən deyirlər ki, biz uşağın yanında əl-ələ tutmuruq ki, uşağın tərbiyəsi pozular. Bu, uşağın tərbiyəsini pozmaz, əskinə. sevgi dolu böyüdər. Uşağın tərbiyəsini travmalı ailə pozur.

### "BÖHRAN İÇİNDƏ İTİB BATIRLAR, AMMA..."

**● Azərbaycanda ailə psixoloqlarından danışaq. Bizdə varmı və nə dərəcədə aktualdır?**

● Azərbaycanda ailə psixoloqu anlayışı demək olar ki, yoxdur. Hazırda psixoloqlar paralel olaraq ailə psixoloqu rolunu oynamağa çalışırlar. Bu sektor çox əziyyətlə inkişaf etməyə çalışır. Cütlüklər də müraciət etdikdə, əziyyət çəkirlər. Xüsusilə, kişi problemini danışmağa çəkinir. Çünki bizdə stereotiplər var ki, kişi öz evinin, ailəsinin sirrini verməməlidir. Böhran içində itib batırlar, ailə dağılır, toksik münasibətlər yüksək olur, amma kişinin oğlu düşünür ki, ailəmin problemindən psixoloqa danışmamalıyam. Lakin son vaxtlar insanlar ailə psixoloqları haqqında məlumatlar toplayır, tətbiq etməyə çalışırlar.

# “XOŞBƏXTLİK HORMONU”MUZ BAHALAŞIR



Kakaonun istehsalı azalır, qiyməti isə sürətlə artır. Ekspertlərin fikrincə, bu proses şokolad istehsalına və qiymətlərinə də təsirsiz ötüşməyəcək. Qiymət artımı bu məhsuldan hazırlanmış digər qida vasitələrində də müşahidə olunacaq.



**ZƏRİF SALMANLI**
zarifsalmanli@kaspi.az

Bu il iki dəfə bahalaşan kakaonun qiymətində hələ də yüksələn dinamika müşahidə edilir. Kakaonun bir tonunun qiyməti 10 min dolları keçib. Bu bahalaşma nəticəsində 2024-cü il ərzində və gələn il şokoladın qiymətinin də artacağı gözlənilir. 2023-2024-cü il mövsümündə əvvəlki 12 aya nisbətən kakao istehsalında təxminən səkkiz faiz azalma proqnozlaşdırılır. Fil Dişi Sahili və Qanadakı əsas kakao fabrikləri toxum xərclərini ödəyə bilmədiklərinə görə, istehsalı azaltmağa və ya dayandırmağa qərar verdikləri üçün kakao qiymətləri rekord qırır. Kakaonun əsas istifadə olunduğu sahələrdən biri də şokolad istehsalıdır. Bu məhsulla bağlı baş verən proseslər Azərbaycanda şokolad qiymətlərinə nə dərəcədə təsir edə bilər?

### XAMMALDAN ASILIYIQ

İqtisadçı Rauf Qarayev “Kaspi” qəzetinə açıqlamasında bildirdi ki, şokolad istehsal etmək üçün digər ölkələrin xammal məhsuluna ehtiyacımız var: “Bu bitki Azərbaycanda bitmir. Çünki hava və iqlim şəraiti ölkəmizdə kakao bitkisini yetişdirmək və digər ölkələrə ixrac üçün əlverişli deyil. Ona görə də digər ölkələrdən asılı vəziyyətdəyik. Dünya bazarında ən çox kakao istehsal edən, öndə gedən ölkə Fil Dişi, sonrakı sırada isə İndoneziya, Qana, Braziliya, Malayziya və digər ölkələrdir. 2023-cü ildə də bu bitkinin qiymətində bahalaşma müşahidə edilirdi”.



Rauf Qarayev

### QİYMƏT ARTIMINI PAYIZDA MÜŞAHİDƏ EDƏ BİLƏRİK

R.Qarayevin fikrincə, hazırda şokoladların qiymətində artım gözlənilməsə də, gələcək dövr üçün bu, mümkündür: “Bu artım Azərbaycanda şokoladın qiymətinə 10-20 faiz təsir edə bilər. Amma Azərbaycan tək kakaonu alır, həm də satışını həyata keçirir. Hazırda yay fəslinə doğru gedirik. Belə olduğu təqdirdə şokolada olan tələbat da azalır. Bu baxımdan hazırda heç bir təhlükə yoxdur. Amma qiymət artımını payız fəslində müşahidə edə bilərik”.

## ONLARDAN HEÇ DƏ GERİ QALMIRIQ

İqtisadçının sözlərinə görə, şokolad istehsalında keyfiyyətli hesab oluna biləcək məhsullarımız çoxdur: “Hazırda rəqiblərimiz Rusiya, Türkiyə, Özbəkistan kimi ölkələrdir. Keyfiyyət baxımından onlardan heç də geri qalmırıq. Müasir avadanlıqlar və digər şərait imkan yaradır ki, ölkəmizdə keyfiyyətli şokolad istehsal olunsun. Bu baxımdan digər ölkələrdən asılılığımız da azalır. Amma kakao cəhətdən asılı olduğumuz üçün qiymət artımı daha çox şokolad istehsal edən firmalara təsir göstərə bilər”.

Müsahibimiz qeyd etdi ki, bazarda süni qiymət artımları baş verə bilər, lakin buna nəzarət vacibdir: “Qiymətin bahalaşmasının qarşısının alınması üçün daimi monitorinq həyata keçirilməlidir. Çünki qiyməti formalaşdıran bazardır, bəzi hallarda sahibkarlar sui-istifadə hallarına yol verirlər. Sahibkarlar qiyməti qaldırdığı zaman bunu əsaslandıran səbəbləri qeyd etmirlər. Amma monitorinqlər aparılmalı və əsassız şəkildə qiymətləri qaldıran sahibkarlar cəzalandırılmalıdırlar. Bu şəkildə süni qiymət artımının qarşısı alınar”.

### TƏLƏB VƏ TƏKLİF QAYDALARINA UYĞUN OLARAQ...

Qida mütəxəssisi Seymur Qafarovun fikrincə, kakaonun istehsalında problemlər mövcud olduğu üçün şokoladın qiymətində yüksəlmə olması təbii haldır: “Dünyada ən çox bahalaşmaya məruz qalan məhsul kakaodur. Bunun səbəbi dünyada onun təminatçısı olan Afrika ölkələrində istehsal şərtlərinin ağırlaşması, mütəxəssis və işçi heyətinin azalması, torpağın məhsuldarlıq səviyyəsinin pestisidlərin təsiri ilə aşağı düşməsidir. Beləliklə, kakaonun istehsalı da azalır. Tələb və təklif qaydalarına uyğun olaraq az istehsal olunmuş məhsul bazarda bahalaşır”.



Seymur Qafarov

### TƏK ŞOKOLAD BAHALAŞMAYACAQ

S.Qafarov bildirdi ki, şokolad və ondan hazırlanan digər şirniyyatların qiymətlərinin də bahalaşması mümkündür. Çünki istehsal müəssisələri xammalı baha qiymətə əldə edir və bu da istehlakçılar üçün ziyandır: “Bu, ictimai iaşə müəssisələri, qənnadı istehsalı sahələrinə də öz mənfi təsirini göstərəcək. Yəni şokoladlı kekslər, bulkalar, bu məhsulun istifadə olunduğu dekorasiyalı tortlar və digər qənnadı məhsullarında - dondurma, kokteyllərin qiyməti də müvafiq olaraq yüksələcək. Həmçinin ölkəmizdə şokolad istehsal edən böyük sahibkarlıq subyektləri və kiçik sexlər şokolad ehtiyaclarının 90 faizdən daha çox həcmini yalnız ölkə xaricindən idxal olunmuş hazır şokolad paxlaları və kakao tozu əsasında ərsəyə gətirir. Onlara bu məhsullar baha başa gələcək. Nəticədə məhsullar istehlakçıya daha yüksək qiymətə gəlib çatacaq. İstehlakçılar bazarda tək şokoladın bahalaşması ilə qarşılaşmayacaq, həmçinin şokolad tərkibli qidaları da baha qiymətə almış olacaqlar. Şokoladın hazırlanmasında isə itki paylarını azaltmaq üçün bu məhsuldan daha diqqətli istifadə olunacaq”.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Sevinc Abbasova, İlhamə Əbülfət, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 783
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# EVSİZLƏRİN ƏSAS ÜMİD YERİ




Son vaxtlar əhalinin mənzil tələbatının ödənilməsində ipoteka kreditləri xüsusi rola malikdir. Biz tez-tez ipoteka şərtlərinin bir qədər də yüngülləşdirilməsi istiqamətində çağırışlar eşidirik.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Son zamanlar tez-tez ipoteka şərtlərinin bir qədər də yüngülləşdirilməsi istiqamətində çağırışlar edilir. Hətta məsələ Milli Məclisdə deputatlar tərəfindən də müxtəlif formalarda gündəmə gətirilir. Xüsusilə də evlərin bahalaşması fonunda mövcud ipoteka şərtlərinin qaneedici olmadığı bildirilir.

### MƏNZİL BAHA, MƏBLƏĞ AZ

Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyevin sözlərinə görə, ölkəmizdə son illər əmlak satışı daha çox ipoteka və bankdaxili kredit şərtləri əsasında satılır. Bakı və böyük şəhərlərdə əmlak qiymətlərinin ciddi şəkildə artması səbəbindən, xüsusilə güzəştli kreditlərlə ev alan şəxslər müəyyən çətinliklərlə üzləşirlər: “Bankın ayırdığı limit və üzərinə əlavə edilən 15-20 faiz vəsaitlə əmlak bazarında mənzil tapa bilmirlər. Bakı ətrafında həmin məbləğə əmlaklar olsa da, alıcılar daha çox mərkəzə doğru, metro stansiyalarına yaxın ərazilərdə mənzillər axtarırlar. İpoteka predmetinə çevrilə bilən yenitikili binalarda qiymətlər kəskin şəkildə bahalaşıb. Köhnə tikililərdə, ən çox da doqquzmərtəbəli binalarda da qiymətlərdə artım müşahidə edilir”.

Ekspertin fikrincə, ayrılan kredit limitinin az olmasından əlavə, sənədləşmə məsələləri də çox çətindir: “Kreditin rəsmiləşdirilməsi zamanı bankda və notariuslarda tələb olunan sənədlər toplusu çox olduğuna görə bəzən insanlar ciddi problemlər yaşayırlar. Sənədləşmə sadələşdirilərsə və faiz dərəcələri aşağı enərsə, bu, ipoteka kreditləri ilə mənzil alan şəxslərin sayında ciddi artım yarada bilər”.

### “HƏYƏT EVLƏRİNİN BÖYÜK ƏKSƏRİYYƏTİNİN SƏNƏDİ YOXDUR”

Müsahibimiz bildirdi ki, bu sahədə yaranan başqa problem mənzillərin çıxarışının olmamasıdır: “Həyət evlərinin böyük əksəriyyətinin sənədi yoxdur. Hansı ki, həyət evlərinin qiyməti bina evlərindən daha ucuzdur. Həyət evləri ilə bağlı sənədləşmələrə başlanılarsa, artıq mənzil alıcıları Bakı şəhəri üçün bir otaqlı yenitikili binalara 140-160 min manat ödəməyəcəklər. Nisbətən kənarda 50-70 min manata həyət evi ala bilərlər ki, ilkin və aylıq ödənişləri də daha azdır. Bu baxımdan, ipoteka predmetinə çevrilə bilən ucuz qiymətə əmlaklar bazara çıxarılarsa, bu sahədəki problemlər də aradan qalxar”.

## İPOTEKA KREDİTİ İLƏ EV ALANLARIN 70 FAİZİ GƏNCLƏRDİR



Elnur Fərzəliyev
Rasim Abdullayev

İpoteka və Kredit Zəmanət Fondunun İpoteka Kreditləri departamentinin direktoru Rasim Abdullayev bildirib ki, İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına banklar tərəfindən həm adi, həm də güzəştli ipoteka kreditləri verilir: “Adi ipoteka kreditləri üzrə maksimal məbləğ 150 000 manat, maksimal müddət 300 ay, illik faiz dərəcəsi 8 faizdir. Fondun vəsaiti hesabına verilən adi ipoteka kreditləri üzrə maksimal illik faiz dərəcəsi 8 faiz olsa da, müvəkkil banklar arasında yaradılmış rəqabət mühitinin nəticəsi olaraq, adi ipoteka kreditləri üzrə orta faiz dərəcəsi 7,4 faiz təşkil edir. Güzəştli ipoteka kreditləri üzrə isə maksimal məbləğ 100 000 manat, maksimal müddət 360 ay, illik faiz dərəcəsi isə 4 faiz təşkil edir. Fondun ipoteka kreditləri vasitəsilə 49 mindən çox ailə mənzil alıb. Bunun 35 faizdən çox hissəsini güzəştli ipoteka kreditləri təşkil edir. Bağlanılmış ipoteka krediti müqavilələrinin məbləği 3 milyard manata çatıb. İpoteka krediti ilə ev alanların 70 faizi gənclərdir. 2021-ci ildə verilmiş ipoteka kreditlərinin həcmi 356 mln. manat, 2022-ci ildə 421,5 mln. manat, 2023-cü ildə isə 459,4 mln. manat təşkil edib”.

## ÖDƏNİŞ BAKIDA 626, REGİONLARDA 356 MANATDIR

R.Abdullayev qeyd etdi ki, rəsmi gəlirlərə malik vergi ödəyicisi olan bütün Azərbaycan vətəndaşlarının ipoteka kreditlərindən faydalanması üçün müvafiq şərait yaradılıb: “Dövlət sektoru ilə yanaşı, özəl sektorda çalışan şəxslər də bu sistemdən faydalana bilirlər. İpoteka kreditlərindən faydalanan şəxslərin 44 faizi özəl sektorda çalışanlardır. Kredit üçün müraciət edən vətəndaşların aylıq gəlirinin hesablanması zamanı Azərbaycan Respublikasının ərazisində əldə edilən, həm də kənardakı mənbələrdən daxil olan milli və xarici valyutadakı gəlirlər nəzərə alınır. Borcalanların ödəniş qabiliyyətinin qiymətləndirilməsi zamanı paytaxt və regionlar arasında gəlir səviyyəsi və yaşayış xərcləri üzrə fərqlər də nəzərə alınır. Regionlarda paytaxtla müqayisədə daha aşağı əmsallar tətbiq olunur. Məsələn, əgər Bakı şəhərində kredit almaq üçün müraciət edən şəxsin bir nəfər ailə üzvünün saxlanılması üçün xərc ölkə üzrə yaşayış minimumunun 50 faizi həddində -135 manat götürülürsə, regionlarda bu, ölkə üzrə yaşayış minimumunun 25 faizi - 67,5 manat nəzərə alınır. Hazırda paytaxt və regionlarda yaşayış sahələrinin qiymətində əhəmiyyətli fərq mövcuddur. 2023-cü ildə Bakı, Sumqayıt, Abşeronda verilən ipoteka kreditləri üzrə orta aylıq ödəniş məbləği 626 manat olsa da, regionlarda verilən kreditlər üzrə bu göstərici 356 manat təşkil edib”.

### “MAKSİMAL HƏDLƏR HAZIRDA ƏHALİNİN TƏLƏBİNƏ TAM UYĞUNDUR”

Direktorun sözlərinə görə, ipoteka kreditləri üzrə maksimal məbləğ, illik faiz dərəcələrinin yuxarı həddi ölkədaxili sosial-iqtisadi vəziyyətin təhlili əsasında, formalaşmış ipoteka portfeli üzrə orta parametrlər və digər iqtisadi göstəricilər nəzərə alınmaqla Fondun Himayəçilik Şurası tərəfindən müəyyən olunur: “2024-cü ilin ilk rübündə verilmiş ipoteka kreditlərinin məbləği üzrə orta göstərici təxminən 89 000 manat, alınan yaşayış sahəsinin orta qiyməti üzrə 131 000 manat təşkil edib. Regionlarda bu məbləğ orta göstəricidən bir qədər də aşağıdır. İpoteka kreditlərinin əsas hədəfi aşağı və orta təminatlı vətəndaşların mənzil şəraitinin yaxşılaşdırılmasına yönəldilib və kredit məbləği üzrə müəyyən olunmuş maksimal hədlər hazırda əhalinin tələbinə tam uyğundur. Daşınmaz əmlak bazarında olan qiymət dəyişiklikləri davamlı şəkildə müşahidə olunur. Aparılan təhlillər artımla bağlı zərurətin olduğunu göstərərsə, gələcəkdə bu məsələyə baxıla bilər”.

GƏNCLƏRİN ƏCZAÇILIĞA MARAĞI VƏ İSTƏYİ AZDIR

# APTEKLƏRİN YARISI ƏCZAÇISIZ QALIB

Hazırda Azərbaycanda mövcud olan 3 250 aptekin təxminən 1 625-nə əczaçı tələb olunur. Gənclərin bu peşəyə marağı çox aşağı səviyyədədir. Üstəlik, ali məktəblərdə əczaçılıq ixtisası üzrə plan yerlərinin sayı həddindən artıq azdır.

SEVİNC ABBASOVA

Yolu apteka düşən insanlar çox zaman əczaçılardan şikayətlənirlər. Əsas şikayətlər adətən dərmanları tanımamaq, səhv dərmanlar vermək, həkimin yazdığı resepti düzgün oxumamaq və sairlə bağlıdır.

Bəs, görəsən, mövcud problem nədən qaynaqlanır? Bu sahədə ümumi durum necədir? Bu problemlə bağlı Səhiyyə Nazirliyi tərəfindən monitorinqlər aparılırmı?

## ÖLKƏDƏ İXTİSASLI ƏCZAÇI ÇATIŞMIR

İxtisasca əczaçı, tibb eksperti İlqar Hüseynli də bu sahədə problemlərin olduğunu təsdiqləyir. Onun sözlərinə görə, hazırda əczaçılıq sahəsi tam olaraq özəl sektorun əlində cəmləşib: "Əczaçılıq obyektləri bu gün iki formada lisenziyalaşdırılır. Ölkə üzrə dərman təchizatını bilavasitə həyata keçirən iki böyük şirkət var ki, onların şəbəkələşmiş formada lisenziyası mövcuddur. Azərbaycandakı əksər apteklər də həmin şəbəkələrin tərkib hissəsi kimi fəaliyyət göstərirlər. Digər lisenziyalaşdırma forması isə sahibkarın birbaşa Səhiyyə Nazirliyinə müraciəti əsasında rəsmiləşdirilir. Əgər əvvəllər apteklərə lisenziya beş illik müddətinə verilirdisə, indi müddətsizdir. Dövlət rüsumu isə 1000 manatdır. Əslində dövlətin apteklərə nəzarəti mövcuddur. Amma problem ondadır ki, ölkədə ixtisaslı kadrların sayı azdır".

Ekspert qeyd edib ki, ali məktəblərdə əczaçılıq ixtisası üzrə plan yerlərinin artırılmasına ehtiyac var: "Ölkədə apteklərin sayı durmadan artır. Amma apteklərdə xidməti həyata keçirmək üçün yetərincə əczaçı yoxdur. Çünki ixtisaslı kadr çatışmır. Tibbi profilli təhsil müəssisələrində əczaçılıq ixtisası üzrə plan yerlərinin sayı həddindən artıq azdır. Məsələn, mən Tibb Universitetində təhsil aldığım zamanlarda əczaçılıq fakültəsinin rus bölməsi ilə birgə hər il 150 nəfər bitirirdi. İndi isə bu say cəmi 40-50 nəfərdir. Onların da əksəriyyəti əcnəbilərdir".



İlqar Hüseynli



## "SERTİFİKASİYA FORMAL XARAKTER DAŞIYIR"

İ.Hüseynli həmçinin vurğulayıb ki, əczaçıların peşəkarlıq səviyyəsinin artırılması üçün mütəmadi olaraq seminarların təşkil olunması vacibdir: "Bu gün əczaçılar beş ildən bir sertifikasiyadan keçirlər. Amma bu da formal xarakter daşıyır. Hesab edirəm ki, sertifikasiya prosesindənsə, əczaçılar üçün mütəmadi olaraq seminarlar təşkil olunmalıdır. Ölkəyə yeni idxal olunan dərmanlar, onların xüsusiyyətləri, tərkibləri barədə əczaçılar məlumatlandırılmalıdırlar. Bu onların peşəkarlıq səviyyəsinin artırılması baxımından daha faydalı ola bilər".

## ƏCZAÇIDAN ÇOX, ƏCZAÇI KÖMƏKÇİSİ VAR

Əczaçılar Klubu İctimai Birliyinin İdarə Heyətinin üzvü Qurbanəli Əliyev isə deyir ki, bu gün aptek sahibi olan sahibkarlar əczaçı çatışmazlığını müxtəlif yollarla aradan qaldırmağa çalışırlar: "Hazırda ölkədə kifayət qədər əczaçı yoxdur. Amma bu məsələ qanunvericilikdə başqa yollarla öz həllini tapır. Belə ki, apteklərdə peşəkar əczaçı ilə yanaşı, əczaçı köməkçiləri də olur. Qanunvericilikdə həmin şəxslərin tibbi təhsilinin olması tələb kimi qoyulmayıb. Bu şəxslər apteklərdə əsasən, gigiyena, kosmetik vasitələr kimi şöbələrdə fəaliyyət göstərirlər. Qanunvericiliyə görə, reseptlə, dərman vasitələri ilə işləyən şöbədə tibbi təhsili olan əczaçı çalışmalıdır".

Mütəxəssis bildirir ki, hazırda Azərbaycanda mövcud olan 3 250 aptekin təxminən 1 625-nə əczaçı tələb olunur: "Bütün apteklərdə ixtisaslı əczaçılar çalışır. Amma elə apteklər var ki, onların şöbələrinin sayı daha çoxdur. Belə apteklərdə ən azı 3-4 ixtisaslı əczaçının çalışmasına ehtiyac var. Bu, xidmət səviyyəsinin yüksəldilməsinə gətirib çıxaracaq. Əczaçı köməkçisi ilə bağlı isə heç bir problem yoxdur. Ölkədə kifayət qədər əczaçı köməkçisi mövcuddur".

Q.Əliyev ölkədə peşəkar əczaçı çatışmazlığını gənclərin bu sahəyə marağının az olması ilə əlaqələndirir: "Düzdür, əczaçılıq ixtisası üzrə plan yerlərinin sayı həddindən artıq azdır. Biz bununla bağlı aidiyyəti qurumlara təkliflərimizi də vermişik. Hesab edirik ki, bu ixtisas üzrə kvota bir neçə dəfə artırılmalıdır. Amma bir məqamı da qeyd etməliyəm ki, gənclərimizin bu sahəyə marağı yoxdur. Onlar əczaçı peşəsini perspektivli görmürlər".



Qurbanəli Əliyev

## APTEKLƏRDƏ MÜTƏMADİ ARAŞDIRMALAR APARILIR

Mövzu ilə bağlı Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinə sorğu ünvanladıq. Mərkəzdən sorğumuza cavab olaraq bildirdilər ki, apteklərdə mütəmadi olaraq monitorinqlər həyata keçirilir: "Səhiyyə Nazirliyinin 11.01.2018-ci il tarixli qərarına əsasən, dərman vasitələrinin buraxılışı ali və ya orta əczaçılıq təhsilinə malik mütəxəssislər tərəfindən həyata keçirilməlidir. Analitik Ekspertiza Mərkəzinin müfəttişləri tərəfindən aparılan yoxlamalar zamanı dərman vasitələrinin əhaliyə buraxılması, həmçinin aptekdə çalışan şəxslərin əczaçılıq təhsilinə malik olub-olmadıqları mütəmadi olaraq araşdırılır".

Qurumdan həmçinin vurğulanıb ki, qanunvericiliyin tələblərini pozan şəxslər inzibati qaydada cəzalandırılırlar: "Aptekdə çalışan və dərman vasitələrinin buraxılışını həyata keçirən şəxs və ya şəxslər ali və ya orta əczaçılıq təhsilinə malik olmadığı halda İnzibati Xətalar Məcəlləsinin 452.3-cü maddəsinə əsasən vəzifəli şəxslər 500 manatdan 700 manatadək, hüquqi şəxslər 1000 manatdan 2000 min manatadək məbləğdə cərimə olunur.

Əlavə olaraq onu da qeyd etmək istərdik ki, cari ildən etibarən ölkə ərazisində elektron resept sisteminə keçid başlanıb. Bu sistem də öz növbəsində yarana biləcək mənfi halların qarşısını alacaq.

Bundan başqa, vətəndaşlar qarşılaşdıqları problemlərlə bağlı Analitik Ekspertiza Mərkəzinə qaynar xətt (012-596-07-12) və pharma.az saytı vasitəsilə elektron formada müraciət edə bilərlər".

# "SON QƏPİYİMİ DƏ SƏNƏ XƏRCLƏMİŞƏM" TƏNƏSİ



Bəzi uşaqlar buraxılış və blok imtahanlarının stressinin öhdəsindən gələ bilmirlər. Hər il bununla əlaqədar həyəcanlı xəbərlər alırıq. İllər keçir, amma durum düzəlmir...



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Hər ilin mart və iyun ayları 9-11-ci sinif şagirdlərinin həyatında ən gərgin vaxtdır. Bu zaman onlar gələcək yollarını müəyyən edən buraxılış və blok imtahanlarının həyəcanını yaşayırlar. Təəssüf ki, hər şagird bu böyük stressin öhdəsindən gələ bilmir.

### "KEÇDİMSƏ, MÖVCUD OLMAQ HÜQUQUM VAR, YOXSA..."

Bu günlərdə 11-ci siniflər üçün buraxılış imtahanından az bal toplayan paytaxt məktəblisinin evdən qaçması hadisəsi ilə yadda qaldı. 11-ci sinif şagirdi evi tərk edərkən məktub yazaraq imtahandan az bal topladığını səbəb kimi göstərib.

Medianın və sosial platformaların gündəminə çevrilən hadisədə valideyni də, məktəbi də qınayanlar oldu. "Son qəpiyimi də sənə xərcləmişəm", - deyən valideynin gözləntisi ilə "məktəbimizin "planka"sını aşağı salmamalıyıq" tələbi yeniyetmələrin həyatında emosional təzyiq yaradır. Bu baxımdan, uşaqlar üçün imtahan sözün əsl mənasında ölüm-dirim məsələsinə çevrilir: "Əgər keçdimsə, mövcud olmaq hüququm var, yoxsa, yox..."

Təəssüf ki, yeniyetmələri emosional hərəkətlərdən qorumaq həmişə mümkün olmur. Təcrübələr də göstərir ki, böyüklər dəhşətli bir addım atmağa qərar verməyə hazır olan bir yeniyetmənin əhval-ruhiyyəsindəki dəyişikliyi həmişə hiss etməyi bacarmırlar...


Reyhan Yusifqızı

### "UŞAQLARI VAXTINDA DÜZGÜN HAZIRLAMIRIQ"

Yazıçı-pedaqoq Reyhan Yusifqızı hesab edir ki, bu məsələdə cəmiyyətin də, valideynin də, məktəbin də üzərinə eyni məsuliyyət düşür: "Uşaqların tərbiyəsinə düzgün yanaşmırıq. Biz həmişə onların yanında olmayacağıq. Sabah onlar onsuz da problemlərlə üzləşəndə onu tək həll etməli olacaqlar. Biz onları bu situasiyaya hazırlamırıq. Ətraflarında çəhrayı bir ortam yaradırıq: mənfi şeyləri onlara demirik ki, pis olarlar, qorxulu kitabları oxumuruq ki, birdən ürəklərində fikir edərlər. Uşaqları qucaqlayıb bir qəfəsə salırıq və onları bütün pis xəbərlərdən, mənfi emosiyalardan qoruyuruq. Uşaq da elə bilir ki, həyat da nağıllardakı kimidir, sonu həmişə yaxşı bitir, ədalət, xeyir qalib gəlir. Birdən görəndə ki, həyat heç də nağıllardakı kimi deyil, özünü itirir, düzgün qərar qəbul edə, özünü qoruya bilmir".



## VALİDEYNİN UŞAQDAN İMTAHAN GÖZLƏNTİSİ

"Ümidli Gələcək Sosial Təşəbbüslər" İctimai Birliyinin icraçı direktoru Kəmalə Aşumovanın fikrincə, məsələyə yanaşmada daha çox uşağa köklənməməliyik: "Uşaq məktub yazıb və evdən gedib. Bu məktubun yazılması, uşağın evdən getmə fikri nədən formalaşır? Niyə rahat evinə gəlib deyə bilmir ki, mən bu gün 80 bal yığdım, 200 bal yığa bilmədim... Valideynlik borcu yüksək səviyyədə qalır, amma valideynlik qayğısı aşağı səviyyədə olur". QHT sədrinin fikrincə, uşaqlara təhsil mühiti, imtahan sistemi də təsir göstərir: "Valideyn uşaqdan imtahan gözləntisini yığışdırmalıdır. Uşağın təhsili olmalıdır, amma ondan bal gözlənməməlidir. Uşağın böyüdüyü mühiti və ətrafdan aldığı təsirləri qiymətləndirməliyik. Burada təkcə valideyn iştirakçılığı deyil, təhsil ocağının iştirakçılığının da rolu var. 15-16 yaşlı imtahandan qorxmayan və sözünü deyə bilən gənc böyütmək istəyiriksə, onu uşaqlıqdan emosional vəziyyətə hazır, güclü yetişdirməliyik. Təəssüf ki, bunu da hər valideyn bacarmır. Təhsil ocağında işləyən müəllim də o yanaşmanı göstərə bilmir". K.Aşumova hesab edir ki, belə hadisələrin yaranmasına bir yox, bir neçə səbəbin təsiri var: "Onu da nəzərə almalıyıq ki, hər uşağın repetitora getmək imkanı yoxdur. Məktəblərdə verilən təhsilin səviyyəsini də nəzərə almaq lazımdır. Həmçinin artıq uşağın tərbiyə prosesinə təkcə valideyn deyil, texnologiyalar da müdaxilə edir. Çünki uşaqlar mobil cihazlardan, sosial platformalardan istifadə edirlər".


Kəmalə Aşumova

## "MƏN SƏNDƏN ÖTRÜ BU QƏDƏR PUL XƏRCLƏYİRƏM"

"Nə qədər ki, valideyn və məktəb uşağa əşya kimi yanaşacaq, sovet ideologiyasının insanı kimi baxacaq, bu kimi hadisələr baş verəcək", - deyə narahatlığını ifadə edən psixologiya üzrə fəlsəfə doktoru Ramidə Oqtayqızı hesab edir ki, bu gün təhsilin verdiyi imkanlar gözləntilərlə üst-üstə düşmür: "Uşaqlar bütün gün əziyyət çəkirlər - hazırlıqlara gedirlər. Müəllimin uşaqdan güclü gözləntisi var: mən səndən bu qədər bal gözləyirəm, sən belə olmalısan. Uşaq müəllimin gözləntisini doğrultmayacağını düşünür: "Məndən gözlənti üst səviyyədədir, amma bunu verə bilməyəcəm". Çünki uşaqlar öz potensiallarını daha yaxşı görürlər. Təəssüf ki, məsələyə nə müəllimlər uşaqların potensialı tərəfdən yanaşa bilir, nə də valideynlər. Valideyn pul xərclədiyini düşünür: "Mən səndən ötrü bu qədər pul xərcləyirəm. Gecə-gündüz çalışıram, yeyib-içmirəm, toya getmirəm, əyin-baş almıram. Xərcləyirəm ki, sən adam olasan". Uşaqlar özlərinin "adam olmaq" prinsipini bir kənara qoyub, günahkarlıq hissi ilə imtahanın nəticəsini gözləyirlər. Həmçinin bu məsələdə valideynin təkcə davamlı olaraq psixoloji basqısı deyil, "babana, qonşuya, qohuma nə deyəcəyik?" - kimi ətrafı düşünmə basqısı da var. Bu kimi psixoloji basqılar uşaqlarda özgüvən hissini aşağı salır. Nəticədə günahkarlıq hissi yaranır".

Psixoloqun fikrincə, valideyn birmənalı anlamalıdır ki, indiki nəsil tamam başqadır: "Təhsil sistemində ciddi dəyişiklik olmalıdır. Valideynlə müəllimin heç bir bağı yoxdur. Uşaqların da məktəblə mənəvi bağı qalmayıb. Onlar daha çox repetitor yanına gedirlər. Hər bir uşağın biliyindən savayı bacarıqları da önə çəkilməlidir. Onların peşə və sosial bacarıqlarını üzə çıxarmaq çox vacibdir. Bunlar düzəlmədikcə bu problem qalacaq..."


Ramidə Oqtayqızı

# BALIQ BOL OLACAQ, QİYMƏT İSƏ...



Son zamanlar havaların istiləşməsi ilə əlaqədar balıqların populyasiya vaxtı dəyişib. Əvvəl kürütökmə dövrü aprel, may, iyun aylarına təsadüf edirdi. İndi mart, aprel ayına düşür. Bu səbəbdən ekspertlər mövcud qadağaların vaxtının dəyişdirilməsini təklif edirlər.



**ZƏRİF SALMANLI**
zarifsalmanli@kaspi.az

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2023-cü ildə ümumilikdə 66 452 ton balıq ovlanıb ki, bu, 2022-ci ilin göstəricisindən 1,1 faiz çoxdur. Bu amil daxili bazarda balıq və balıq məhsullarının qiymətinə necə təsir göstərəcək?

### "İLK DƏFƏ XƏZƏRƏ KÜRÜLÜ ZİYAD BALIĞI BURAXDIQ"

Balıqçılar İttifaqının sədri Əfqan Əliyev "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, artımın səbəbi bu sahəyə diqqət ayrılmasıdır: "Son illər qanunsuz balıq ovu ilə mübarizə və balığın populyasiyası zamanı qadağalara əməl olunmasına görə, Xəzərin Azərbaycan sektorunda və daxili su hövzələrində az da olsa artım müşahidə olunur. Balıq yetişdirilməsi sahəsində artımın olmasını sənaye və həvəskar balıqçılardan da öyrənirik. Hər iki sahədə balığın sayı artıb. Son illər balıqçılıq sahəsinə müəyyən diqqət göstərilir. İllərdir insanları təşviq edirik, daxili su hövzələrinə balıq körpələri buraxırıq. Keçən il ilk dəfə Xəzərə kürülü ziyad balığı buraxdıq".

### "QADAĞALARIN DA VAXTI DƏYİŞDİRİLMƏLİDİR"

Ə.Əliyevin sözlərinə görə, bu sahədə imkanlarımız çox genişdir, amma nəzərə alınmalı məqamlar var: "Ümumi götürdükdə ziyad, sazan kimi balıqların populyasiyasının çoxaldılması üçün ən əlverişli ərazi Xəzərin Azərbaycanın cənub hissəsinə düşən bölgəsidir. Qanunsuz balıq ovu ilə mübarizə, artım dövründə qadağalara yenidən baxılması çox vacibdir. Çünki bu, ölkəmizdə əsasən sovet dönəmindən qalma qadağalardır. Bir neçə ildir havaların isti keçməsi ilə əlaqədar balıqların populyasiya vaxtı ilin əvvəlinə doğru dəyişib. Əvvəl kürütökmə dövrü aprel, may, iyun aylarına təsadüf edirdi. İndi mart, aprel ayına düşür. Bu səbəbdən qadağaların da vaxtı dəyişdirilməlidir".

### "HEÇ BİR NAZİRLİK ÖHDƏSİNƏ GÖTÜRMÜR"

Müsahibimizin fikrincə, balıqçılığın inkişaf etməsini istəyiriksə, bu sahə hansısa qurumun tərkibində olmalıdır: "Balığa maraq çoxdur, amma balıqçılığa diqqət böyük deyil. Yəqin ki, gec-tez Azərbaycanda balıqçılığa aid dövlət qurumu yaradılacaq. Yaxud, bu işi Kənd Təsərrüfatı Nazirliyi üzərinə götürə bilər. Hazırda balıqçılığın inkişaf etdirilməsini heç bir nazirlik öhdəsinə götürmür. Ekologiya və Təbii Sərvətlər Nazirliyi də tam diqqət ayıra bilmir. Onlarda mütəxəssis demək olar ki, yoxdur. Balıqçılığı inkişaf etdirsək, həm nərə, həm ziyad kimi balıq növlərini ixrac edə bilərik. Hazırda İran yeganə ölkədir ki, ziyad balığını digər ölkələrə ixrac edir. Amma Azərbaycanın da iqlimi bunun üçün çox əlverişlidir".

Ə.Əliyev qeyd etdi ki, bu il balıqçılıqla bağlı müəyyən işlər görüldüyü üçün məhsul bol, qiymət isə daha ucuz olacaq: "Balıqçılıq təsərrüfatlarına subsidiyaların ayrılması yerli balığın qiymətinin bazarda ucuzlaşmasına səbəb ola bilər. Bu il bir çox qanunsuz avadanlıqlar sökülüb. Nəticədə balığın Xəzərdən çaylara üz tutub kürü tökməsinə şərait yaranıb. Ona görə də, bu il balıq bol olacaq".

## STATİSTİKA REALLIĞI ƏKS ETDİRMİR?

"Azərbaycan Balıq İstehsalçıları və Emalçıları Assosiasiyası" İctimai Birliyinin sədri Zaur Salmanlı isə bildirdi ki, statistik rəqəmlər həqiqəti əks etdirmir: "Sorğu əsasında Azərbaycanda balıq və balıq məhsulları istehlakının adambaşına 7,8 kiloqram olduğunu müəyyən ediblər. Bu da 78 min ton deməkdir. İdxal olunan balıq və balıq məhsullarının illik həcmi 18 min tondur. İstehlak rəqəmlərindən idxalı çıxdıqda 60 min ton qalır. Beləliklə, "ovlanmış balıqlar bu qədərdir", - deyə nəticə çıxarırlar. Hətta, sovet ittifaqı zamanı balıqçılığın inkişaf etdiyi dövrdə belə, rəqəmlər bu həddə deyildi. Azərbaycanda nə bu qədər istehlak var, nə də daxildə ov və istehsalın həcmi qeyd olunan qədərdir".

Zaur Salmanlı

## DÜNYADA BALIQ OVU SƏVİYYƏSİ AZALIR

Z.Salmanlının sözlərinə görə, son illərdə bu sahədə idxal artır, istehsal azalır, qiymətlər isə bahalaşır: "Artım ola bilməz. Çünki bütün dünyada ovlama səviyyəsi azalır. Bu, Azərbaycanda da baş verir. Balıq və balıq məhsullarının istehsalı kənd təsərrüfatı sahəsinə aid olmadığı üçün heç bir dəstək almır. Ona görə İrandan qızılxallı, şimaldan sazan kimi ucuz qiymətə idxal olunan balıqlar Azərbaycanda daxili istehsalı 3-4 ildir azaldır. Təbii ki, istehsal az olduğu üçün qiymət də, idxal da artacaq. Mənim fikrimcə, qiymətin azalması yaxın gələcəkdə gözlənilmir".

Balıqçılıq fəaliyyəti ilə məşğul olanların qənaətincə, balıq mövsümü artıq yekunlaşdığına görə bazarda ucuzlaşma olmayacaq: "Balıq ovunda artım yoxdur. Ucuzlaşma ancaq göldə yetişdirilən balıqların qiymətində ola bilər. Ancaq artıq mövsüm bağlanıb".



Əfqan Əliyev

**Fotolar:** Tapdıq Abdullayev - Rüfət Mikayılov /Global Media Group

# SİVİLİZASİYANIN TOXUNMADIĞI YERDƏN REPORTAJ








İordaniyanın cənubundakı Vadi Rum səhrası Yer kürəsini tərk etmədən özünüzü başqa planetdə tapmaq üçün bir fürsətdir. Bura çöl safarisi üçün ən sevimli turist marşrutu hesab olunur.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

İordaniyanın landşaftı Yer kürəsinin digər yerlərindən çox fərqlidir: ərazisinin təxminən 90%-i yarımsəhra və səhralardır. Ən məşhur səhrası isə Vadi Rumdur. Bu səhranı "sivilizasiyanın, zamanın toxunmadığı yer" adlandırırlar. "İordaniyanın cənubundakı Vadi Rum səhrası (Wadi Rum) Yer kürəsini tərk etmədən özünüzü başqa planetdə tapmaq üçün bir fürsətdir. Zamandan kənarda və zahirən məkandan kənarda bir yer...", - deyə qədim səyyahlar Vadi Rumu belə təsvir ediblər.

İordaniyanın ən böyük vadisi qumdaşı və qranitdən yaranıb. Bura təkcə ölkənin deyil, dünyanın unikal təbii görməli yerlərindən biridir. Səhraya "Ay Vadisi" də deyirlər. Astronavt James İrvin Vadi Rumu gördükdən sonra deyib: "Bu yer Ayda olduğum vaxtda gördüklərimə Yer kürəsində ən yaxın yerdir". Astronavtın bu sözlərindən sonra "Ay Vadisi" adı bütün dünyada populyarlaşıb.

## "VADİ RUMU GÖRMƏDƏN QAYITMA"

Vadi Rum Qırmızı dəniz sahilindəki tarixi Aqaba şəhərindən 60 kilometr məsafədə yerləşir. Turizm şirkətləri Vadiyə özəl və qrup turları təşkil edirlər. Vadi Ruma giriş üçün 7 dinar (16 AZN) ödəmək lazımdır. "Jordan Pass" alan turistlər Vadiyə pulsuz daxil ola bilirlər. Turistlər arasında "İordaniyaya getdinsə Vadi Rumu görmədən qayıtma" fikirləri geniş yayılıb. Özəl tura qoşulmaq üçün adambaşına 65 ABŞ dolları (110 AZN) ödəyib qeyri-adiliyi gözlərimizlə görmək üçün çöl safarisi turuna qoşulduq.

Vadi çöl safarisi üçün ən sevimli turist marşrutu hesab olunur. Səhrada Jeep traslarından başqa heç bir yol yoxdur. Dəvələr başqa bir məşhur nəqliyyat vasitəsidir.

Turistlər həmçinin Vadi Rumun yaxınlığında Əl Hicaz qatarına minib vadini gəzə bilirlər. Hicaz dəmir yolu 1900-1908-ci illər arasında Osmanlılar tərəfindən müsəlmanların müqəddəs yerlərə səfərlərinin təşkili məqsədi ilə tikilib.

Vadi Ruma daxil olan kimi qarşımızda inanılmaz dərəcədə gözəl bir mənzərə açılır: Vadi Rum inanılmaz gözəlliyi və unikallığı ilə şifahi təsvirə meydan oxuyur. Burada hər şey valehedicidir: rənglərlə oynayan qayalar, bir-birinə qarışmayan çoxrəngli qumlar, sonsuz səma və sükut... Zamanla təbii qüvvələrin - küləklərin, günəşin və yağışın təsiri ilə bu səhrada füsunkar bir mənzərə formalaşıb: ən qəribə formalı qayalar, təbii dağlar, quyular və kanyonlar yaranıb. Ara-sıra səhranın qumlarının rəngi dəyişir – qırmızıdan sarıya çevrilir.

Jeep safari turunda bizi müşayiət edən Abdulla adlı bələdçimiz vadinin iqlim xüsusiyyətləri haqqında danışır: "Gün ərzində küləklər üzündən temperatur kəskin dəyişir. Gündüz və axşam temperaturu arasında böyük fərq var. Məsələn, iyul ayında İordaniyanın attraksionlarına baş çəksəniz, o zaman gündüz 32 dərəcəyə, axşam və gecə isə 13 dərəcəyə hazır olun".

Vadi Rum qayalarının bəzilərində rəsmlər diqqət çəkir. Səhradakı petroqliflər, yazılar və arxeoloji tapıntılar 12 min illik insan həyatının və ətraf mühitlə qarşılıqlı əlaqənin sübutudur. Burada 25 min mağara rəsmi 20 min yazı ilə birləşib. Hər qaya qeyri-adi dizaynı olan bir memarlıq əsəridir.

YUNESKO-nun Rum Vadisini Dünya İrs Siyahısına daxil etməsinin səbəbi də məhz bu tarixiliyi və əsrarəngizliyi qorumaq arzusudur.

## BƏDƏVİLƏRİN HƏYAT TƏRZİ

Bütün bunlarla yanaşı, Vadi Rum heç də təbiətin sivilizasiyadan uzaq cansız guşəsi deyil. Ta Nəbati krallığı dövründən bədəvilər - köçəri ərəblər səhrada məskunlaşıblar. Onlar öz adət-ənənələrini qoruyaraq çadırlarda yaşayır, dəvə, qoyun-quzu saxlayırlar. Bəzi çadırların yanında yolsuzluq avtomobillərini də görmək olur. Səhrada mağaralarda yaşayanlar da var.

Tur zamanı bədəvi çadırlarının birində isti çaya qonaq oluruq. "Ucsuz-bucaqsız səhranın ortasında, çadırda küləyin yaratdığı tozanaqlar, insanlardan uzaq tənhalıqda necə yaşamaq olar?" sualını köçəri ərəb gözümüzdən oxuyur: "Bu, əsrlərdən bəri bizim həyat tərzimizdir. Ocaq qalayıb yemək, çay hazırlayırıq. Artıq elektrik enerjisi də var. Ramazan ayında hamımız oruc tuturuq. İndi iftar açmağa hazırlaşırıq. Təsərrüfatımız dolanışığımıza kömək olur".

Bələdçimiz ərəblərin son dövrlər səhrada turizmlə əlaqəli ənənəvi üslubda qurduqları müasir qonaq evləri ilə də bizi tanış edir. Səhrada gecələyən turistlər ərəb musiqisi dinləyə, çay və ya kofe içə, qum altında bişən dadlı yeməkdən yeyə bilirlər. Turlara günəşin qürubunu izləmək və gecənin sakitliyində səmada sayrışan ulduzları seyr etmək də daxildir.

## HOLLİVUD FİLMLƏRİNİN ÇƏKİLİŞ MEYDANI

Vadi Rum Mars səthinə bənzərliyi ilə məşhur olduğuna görə, bir neçə Hollivud filmlərinin çəkilişi üçün də məşhur məkan olub. Son illərin ən çox səs salan "Marslı" filminin çəkilişlərinin aparıldığı məkanla tanış oluruq. Vadi Ruma Marsın yerdəki filialı da deyilir. "Uzaq planetlər haqqında filmlər üzərində işləyərkən rejissorlar daha çox Vadi Rumu seçirlər", - deyə Abdulla bildirir.

Səhrada həmçinin "Transformerlər - Məğlubların qisası", "Qırmızı planet", "Marsda son günlər" və s. filmlər də çəkilib. Bundan əlavə, Vadi Rum dünya kinosu tarixinə 1962-ci ildə "Oskar" mükafatı qazanmış "Ərəbistanlı Lourens" filminin çəkiliş məkanı kimi düşüb. Film 1916-1918-ci illərdə Böyük Ərəb Üsyanında mühüm rol oynamış Britaniya zabiti və səyyahı Tomas Edvard Lourensin tərcümeyi-halından bəhs edir. Zabit daha sonra "Yeddi hikmət sütunu" adlı xatirə kitabını nəşr etdirib və qısa versiyada kitab "Səhrada yüksəliş" adlanıb. Kitabın səhifələrində Vadi Rumun inanılmaz mənzərələrini təsvir etməyə çox yer ayrılır və müəllif onun qaya birləşmələrini "möcüzəli göydələnlər" adlandırır. Sonralar Vadi Rum dağlarından biri "Yeddi hikmət sütunu" adını alıb.

Ulduzların, qumun və günəşin həmişə sakit vadisi öz həyatını yaşayır və hər kəsi səhranın sakitliyini yaşamağa, üfüq xətlərində azmağa, ruhunu sakitləşdirməyə dəvət edir...



Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
10 APREL ÇƏRŞƏNBƏ 2024
www.kaspi.az



# TÜRKİYƏ NƏHƏNGLƏRİNİN DAVASI ALOVLANIR

Türkiyə futbolunda mövcud durum olduqca gərgindir. Bəzi mütəxəssislər Super Kubokda yaşananların nümunəsində, ümumiyyətlə, mövsümün başa çatmama ehtimalının olduğundan bəhs edirlər.

Türkiyə gündəminin əsas mövzusu yenidən futboldur. Təəssüf ki, bu dəfə də idmanın şahı qonşu ölkədə neqativ çalarlarla gündəmdədir. Bazar günü “Qalatasaray”la “Fənərbağça” arasında keçirilməli olan Super Kubok matçı başlasa da, bitmədi.

**BAŞI BƏLALI SUPER KUBOK**

Super Liqanın son qalibi “Qalatasaray”la Türkiyə Kubokunun hazırkı sahibi “Fənərbağça” arasında keçirilməli olan sözügedən qarşılaşma hələ ötən ilin sonunda baş tutmalı idi. Oyunun dekabrın 29-da Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda keçirilməsi planlaşdırılmışdı. Türkiyə Futbol Federasiyasının rəhbərliyi bu qərarın daha çox gəlir əldə etmək niyyəti ilə qəbul edildiyini açıqlamışdı. Hər iki klub, hakimlər bu məqsədlə Ər-Riyada yollanmışdılar. Lakin oyunun startına saatlar qalmış matçın baş tutmama ehtimalı yarandı. Bun səbəb Səudiyyə Ərəbistanı hökumətinin komandalara meydana Atatürk pankartı və tişörtləri ilə çıxmasına, matçdan öncə Türkiyə himninin səslənməsinə icazə verməməsi olmuşdu. Danışıqlar nəticə vermədi və qarşılaşma baş tutmadı. Martın 24-də TFF Super Kubok oyununun aprelin 7-də Şanlıurfada oynanılacağını açıqladı.




## “FƏNƏRBAĞÇA” NƏDƏN NARAZIDIR?

“Fənər” aprelin 11-də UEFA Avropa Konfrans Liqasında ¼ final qarşılaşmasına çıxacaq. Klub Yunanıstan “Olimpiakos”una qarşı çətin səfər matçı öncəsi Super Kubok görüşünün keçirilməsinin əleyhinə idi. Klubdan verilən açıqlamalarda TFF-nin mövsümdən öncə təqdim olunan təqvimə riayət etmədiyi və oyunun vaxtı açıqlanarkən klubun mövqeyini nəzərə almamasından narazılıq ifadə olunub. “Fənərbağça” avrokuboklarda mübarizəni dayandıran “Qalatasaray”dan fərqli olaraq, əhəmiyyətli qarşılaşma öncəsi belə bir matçın keçirilməsinin qəti əleyhinə idi. İstanbul təmsilçisi Super Kubok oyununun daha münasib tarixə təxirə salınmayacağı halda ya ümumiyyətlə meydana çıxmayacaqlarını, ya da klubun U-19 komandası ilə oynayacaqlarını açıqlamışdı. Nə TFF, nə də “Fənərbağça” geri addım atdı.

Bazar günü Şanlıurfada Super Kubok matçı təşkil olundu. “Qalatasaray” əsas, “Fənərbağça” U-19 komandası ilə meydana çıxdı. Startdaca “sarı-qırmızılar” Mauro İkardinin qolu ilə hesabı açdılar. Ardınca ikinci dəqiqədə “Fənərbağça” futbolçuları meydanı tərk etdilər.

**TRABZON HADİSƏLƏRİ**

“Fənərbağça” ilə TFF arasında bağların qopmasında son həlledici məqam Super Liqanın XXX turunda “Trabzonspor”la səfər qarşılaşması oldu. Sözügedən oyunda “bülbüllər” oyundan sonra meydan sahiblərinin azarkeşləri tərəfindən hücuma məruz qalmışdı.

“Trabzonspor”la matçın ardınca “Fənərbağça” rəhbərliyi Türkiyə Super Liqasından çıxmağı belə, müzakirə etmişdi. Hakimlərdən, haqsız rəqabətdən və təzyiqlərdən narazılığını dilə gətirən klub rəhbərliyi, xüsusən prezident Ali Koç federasiya əleyhinə sərt ittihamlar səsləndirdi. Hətta “Fənərbağça”nın başqa liqaların birində çıxış etmək variantı da müzakirə olunurdu. Yekunda klub Super Liqada mübarizəni davam etdirmək qərarına gəldi. Lakin Super Kubokla bağlı qərar dəyişmədi.

“Trabzonspor”la oyunda yaşananlara görə “Fənərbağça”dan müdafiəçilər Brayt Osayi-Samuel Brayt, Ceydon Ostervolde və qapıçı İrfan Can Eğribayat da intizama cəlb edildilər.

## SUPER LİQADA MÜBARİZƏ DAVAM EDİR

Super Kubokda baş verənlərin fonunda Super Liqada “Fənərbağça” ilə “Qalatasaray”ın çempionluq mübarizəsi son sürətlə davam edir. 31 turdan sonra “sarı-qırmızılar” 84 xalla liderdirlər. “Fənərbağça” isə 82 xalla ikinci pillədə qərarlaşıb. Qarşıdakı 7 matçın biri bu komandaların öz arasındadır. Mayın 19-da XXXVII tur çərçivəsində “Qalatasaray” öz meydanında əzəli rəqibini qəbul edəcək. Məhz bu görüşün çempionluğun taleyini müəyyənləşdirəcəyi ehtimal edilir. Düzdür, hər iki komandanın digər çətin oyunları da var, lakin belə bir məqamda onların itki ilə üzləşəcəyi inandırıcı deyil.

Super Liqanın həlledici mərhələsinə “Fənərbağça” TFF ilə münasibətləri həddən artıq pis daxil olur. Ümumiyyətlə, Türkiyə futbolunda mövcud durum olduqca gərgindir. Bəzi mütəxəssislər Super Kubokda yaşananların nümunəsində, ümumiyyətlə, mövsümün başa çatmama ehtimalının olduğundan bəhs edirlər. Qarşıdakı turlarda xüsusən “Fənərbağça”nın oyunlarında baş verə biləcək hər hansı gərginlik belə, bu qığılcımı alovlandıra bilər.


Ali Koç